# İmam Cəfər Sadiq əleyhissalam buyurur:

*1- Cənnəti qazanmağın yolunu axtardım, onu səxavətli olmaqda tapdım.*
*2- Sağlamlıq və salamatlığın yolunu axtardım, onu sadə həyat tərrzində tapdım.*
*3- Əməl tərəzisində yaxşı əməllərimin ağır olmasının yolunu axtardım, onu "la ilahə illallah, Muhəmmədun rəsulullah" zikrində tapdım.*
*4- Cənnətə sürətlə və tez girməyin yolunu axtardım, onu bütün işləri Allaha xatir etməkdə tapdım.*
*5- Ölümü sevməyin yolunu axtardım, onu mal-dövlətdən Allahın razılığını qazanmağa xatir ehtiyaclı olanlara bəxşiş etməkdə tapdım.*
*6- İbadətin şirinliyinin yolunu axtardım, onu günah etməməkdə tapdım.*
*7- Qəlbin incəliyinin yolunu axtardım, onu aclıq və susuzluqda (oruc tutmaq, ya az yeməkdə) tapdım.*
*8- Qəlbin nurlu olmasının yolunu axtardım, onu düşünmək və ağlamaqda tapdım.*
*9- Sirat körpüsünü asan keçməyin yolunu axtardım, onu sədəqə verməkdə tapdım.*
*10- Üzümün nurlu olmasının yolunu axtardım, onu gecə namazı qılmaqda tapdım.*
*11- Cihad və çalışmağın üstününü axtardım, onu ailəm üçün ruzi qazanmaqda tapdım.*
*12- Allahın məni sevməsinin yolunu axtardım, onu günahkarlarla düşmən olmaqda tapdım.*
*13- Böyüklük və başçılığın yolunu axtardım, onu insanların xeyirini istəməkdə və onları nəsihət etməkdə tapdım.*
*14- Qəlbimin rahatlığının yolunu axtardım, onu az sərvətə malik olmaqda tapdım.*
*15- İşlərin ən üstününün yolunu axtardım, onu səbr etməkdə tapdım.*
*16- Şərafətli və hörmətli olmağın yolunu axtardım, onu elm öyrənməkdə tapdım.*
*17- Həqiqi ibadəti axtardım, onu pərhizkarlıqda və şübhəli şeylərdən uzaq olmaqda tapdım.*
*18- Rahatlıq və asayişin yolunu axtardım, onu dünyaya bağlı olmamaqda tapdım.*
*19- Ucalıq və alicənablığın yolunu axtardım, onu təvazökar olmaqda tapdım.*
*20- Əziz və hörmətli olmağın yolunu axtardım, onu doğruçuluqda və düzgünlükdə tapdım.*
*21- Sadəlik və yumşaqlığın yolunu axtardım, onu oruc tutmaqda tapdım.*
*22- Ehtiyacsızlığın yolunu axtardım, onu qənaətcil olmaqda tapdım.*
*23- Özümə həmdəm və sirdaş axtardım, onu Quran oxumaqda tapdım.*
*24- İnsanların dostu olmağın yolunu axtardım, onu gözəl əxlaqlı olmaqda tapdım.*
*25- Allahın razılığını axtardım, onu ata-anaya yaxşılıq etməkdə tapdım.*

# Quranın təfsiri üsulları

Quran insan üçün hidayət kitabıdır ki, insanı fərşdən ərşə aparsın və onu İlahi xilafət sarayında oturtsun. Və öz vilayət camından ona içirtsin. Və İlahi rizvan və qürb (Allaha yaxınlaşmaq) məqamında yerləşdirsin. Quran insanın üfüqi və şaquli hidayəti üçün nazil olmuşdur; şaquli rizvan və qürbə kimi yuxarı, üfüqi insan həyatının bütün sahələrini əhatə edir.

Quran da insanın hidayəti ölçüsündə əhəmiyyətə malikdir. Çünki bütün hidayət Quranın göstərdiyi yollardır.

Düşüncə qarmaqarışıqlığı və nəzər ayrılığı fəzasında bəziləri öz nəzəriyyələrini Quran adı ilə xarakterizə etmiş və Quran ayələrinə öz əqidələrini yeritmişlər. Halbuki biz Quranın qarşısında ustadın hüzurunda şagird kimiyik.

Quran insan üçün hazırlanmış süfrədir. Düzgün deyil ki, insan öz yeməyini Quran süfrəsində yerləşdirib Quran adı ilə təbliğ etsin. Hamı Quranı dərk etməkdə azad olsa da, başlanğıcda bəzi məsələləri nəzərə almaq lazımdır.

Bu məqalədə İlahi kəlamın dərki üçün lazımi şərait və müqəddiməyə qısa nəzər salınmışdır və ümid olunur ki, bu bəhslərin müzakirəsi və genişlənməsi üçün bir pəncərə olar.

**1. Ərəb dilini bilmək.**

Quranın dili fitrət dili möhtəvasından olmasına baxmayaraq, bütün insanlar üçün hidayət kitabıdır. Amma söz baxımından Quran ərəb dilində nazil olmuşdur. Buna görə təfsirçi gərək ərəb dilinin qaydaları, ərəb dilinin ədəbi üsulları, ərəb ədəbiyyatı nəzəriyyəsi, ərəb dilinin fəsahət və bəlağəti ilə tanış olsun ki, ayənin məqsədini başa düşə bilsin. Quranın bir mərhələsi hökmlər mərhələsidir ki, dil libası olmadan da, Allahın yanındadır. Lakin Quran ərəb dilində nazil olmuşdur.

الر كِتَابٌ أُحْكِمَتْ آيَاتُهُ ثُمَّ فُصِّلَتْ مِن لَّدُنْ حَكِيمٍ خَبِيرٍ

Əlif, Lam, Ra. (Mən bütün varlıqları görən» Allaham. Mənim kitabım həmin hərflərdən təşkil olunmuşdur, amma eyni zamanda möcüzədir. Mənim kitabımın möhkəm və bu cür mütəşabih ayələri vardır. Bu hərflər Allahla Onun peyğəmbəri Məhəmməd (s) arasında olan rəmzlərdir. Bu Quran) ayələri (kəlmələrinin fəsihliyi, quruluşunun möhkəmliyi, məzmununun xəta, ixtilaf və nəsxdən qorunması ilə) möhkəmlənmiş, sonra isə hikmətli və xəbərdar (Allah) tərəfindən (surələr, ayələr, hökmlər, əxlaqi göstərişlər və digər müxtəlif maariflərlə) ətraflı (şəkildə izah edilmiş bir kitabdır.» (Hud surəsi, 1

إِنَّا جَعَلْنَاهُ قُرْآنًا عَرَبِيًّا لَعَلَّكُمْ تَعْقِلُونَ وَإِنَّهُ فِي أُمِّ الْكِتَابِ لَدَيْنَا لَعَلِيٌّ حَكِيمٌ

«Biz bu kitabı bəlkə (bu kitabın təqdim edildiyi ilk ümmət olan) siz (onun həqiqətləri barəsində) düşünəsiz deyə ərəbcə olan bir Quran etdik. Həqiqətən bu (Quran) Bizim yanımızda ana kitabda (Lövhi-Məhfuzda) uca məqam və möhkəm quruluş, dəqiq məzmun və mətin bəyan sahibidir» (Zuxruf surəsi, ayə 3,4)

**2. Quranın sinonimlərinin mənasını bilmək**

Dilin mənşəyi və onda dəyişiklik dilçilik bəhslərindəndir ki, öz yerində araşdırılmalıdır. Qeyd etmək lazımdır ki, sözlərdən bəzisi zaman keçdikcə ilkin mənasını itirmiş və başqa mənada işlənmişdir. Məsələn, «səlat» sözü həqiqətdə dua mənasındadır, lakin indiki dövrdə namaz mənasında işlənir. Ona görə də həmin dövrdə işlənən sözün mənasını bilmək lazımdır ki, ayənin düzgün dərk olunmasına kömək etsin.

**3. Ayələrin şəni nüzuluna müraciət, İslam tarixi, peyğəmbərlərin tarixi və Quranın nazil olduğu mühitin tarixini bilmək.**

Bildiyimiz kimi Quranda ayələrin çoxu peyğəmbərlərin əhvalatı və o dövrdə baş verən hadisələr haqqında qeyd olunmuşdur. Belə ki, Quran surələrindən bəzisi Yunus, Yusif, Nuh, Hud kimi peyğəmbərlərin adı ilə adlandırılmışdır. Hətta Ənbiya adlı müstəqil bir surə də mövcuddur. Peyğəmbərlərin tarixi ilə tanışlıq təfsir edilən ayələrin dərk olunmasına xüsusi aydınlıq gətirir. Və həmcinin Quranda elə ayələr vardır ki, İslamın başlanğıcındakı hadisələr haqqındadır. Bədr, Uhud, Xəndək və sairə kimi Peyğəmbərin döyüşləri, qiblənin dəyişməsi, Qədir-xum və başqa hadisələr bura daxildir.

Peyğəmbər Əkrəmin (s) tarixi və İslamın başlanğıcındakı hadisələrlə tanışlıq insana bu ayələri yaxşı anlamağa və o ayələrin fəzasına daxil olmağa kömək edir.

Digər tərəfdən bəzi ayələr xüsusi şəninüzula malikdir. Məsələn, Peyğəmbərdən bir sual soruşurlar və ya bir hadisə baş verir və sonra Allah-Təala insanın həmin hadisədə hidayəti və sualına cavab olaraq həmin ayələri və ya ayəni nazil etmişdir

ki, onların şəni-nüzuluna diqqət etmək insana ayələrin düzgün təfsirində kömək edir.

Əlbəttə, bu məsələni də qeyd etmək lazımdır ki, şəni-nüzulun sənədləri hədisşünaslıq elmi baxımından yoxlanılmalıdır ki, düzgün olduğu təqdirdə ayələrin dərk olunmasında istifadə olunsun. Əks halda təfsirçinin ayənin düzgün mənasından sapınmasına səbəb olar.

**4. Quranın bütün ayələrinin həmahəngliyinə diqqət**

**Hər ayənin bir məsələni xüsusi şəkil, xüsusi baxış, xüsusi ahənglə çatdırmasına əsasən həmin ahəngə «siyaq» deyilir.**

Məsələn, bir ayə şiddət məqamındadır, deyirlər onun siyaqı şiddətdir. Yaxud əgər ayə əta və mərhəmət haqqındadırsa, deyirlər siyaqı mərhəmətdir.

Bəzi cümlələrin məqamlarında mənası fərqlənir ki, biz özümüz də danışıq dilində bəzi kəlmələri müxtəlif məqamlarda işlədirik. Siyaqa diqqət etmək cümlənin münasib mənasını başa düşməyə kömək edir.

**5. Məkki və Mədəni ayələri tanımaq (Quranın nazil olma tarixini bilmək)**

Quran ayələri bir baxımdan da iki yerə bölünür: 1) Məkki, 2) Mədəni

Quranşünas alimləri arasında bunların tanınmasında ixtilaf mövcuddur ki, bu iki istilahın təyinində üç nəzəriyyəyə diqqət yetirilir.

1) Zaman nəzəriyyəsi: Hicrətdən əvvəl nazil olan ayələr Məkki, hicrətdən sonrakılar isə Mədəni adlanır.

2) Məkan nəzəriyyəsi: Məkkədə nazil olan ayələr Məkki, Mədinədə nazil olanlar isə Mədənidir.

3) Xitab nəzəriyyəsi: Hansı surədə يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ xitabı olsa,Mədəni, hansı surədə يَا أَيُّهَا النَّاسُ olsa, Məkkidir.

Əlbəttə, üstün nəzəriyyə həmin birinci nəzəriyyədir. Ayə və surələrin Məkki və Mədəni olmasına diqqət ayələrin nasix və mənsux olmasının düzgünlüyünü müəyyən etməyə səbəb olur, ayənin mənasının düzgün dərkini xeyli asanlaşdırır.

Nümunə olaraq aşağıdakıları deyə bilərik:

Məkki ayələrin zəkat kəlməsi zəkat istilahı mənasında deyil, mütləq sədaqət mənasındadır. Çünki zəkat hökmü Mədinədə nazil olmuşdur.

Mümkündür ki, bir surə Məkki olsun, amma onun içində bir ayə və ya ayələr Mədəni olsun ki, bu məsələyə diqqətsizlik ayənin mənasını düzgün dərk etməməyə səbəb olar.

Necə ki, bir müəllif bu məsələyə diqqət etmədiyindən deyir:«Şura surəsinin 23-cü ayəsi Peyğəmbərin ailəsi haqqında nazil olmamışdır.

ذَلِكَ الَّذِي يُبَشِّرُ اللَّهُ عِبَادَهُ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ قُل لَّا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَى وَمَن يَقْتَرِفْ حَسَنَةً نَّزِدْ لَهُ فِيهَا حُسْنًا إِنَّ اللَّهَ غَفُورٌ شَكُورٌ

«Bu, Allahın, iman gətirərək yaxşı işlər görmüş bəndələrini müjdələdiyi həmin şeydir. De: «Sizdən bunun (ilahi tapşırıqların çatdırılmasının) müqabilində qohumlarım barəsində (qəlb və əməldə olan) məhəbbətdən başqa bir muzd istəmirəm.» Kim bir yaxşı iş görsə (daha artıq məhəbbət göstərsə), Biz onun üçün həmin işdə yaxşılıq (savab) artırarıq (onun təbii mükafatına ən azı on dəfə artıq əlavə edərik). Həqiqətən Allah bağışlayan və qədirbiləndir.». Səbəbi isə budur ki, surə Məkkidir və o zaman belə bir işi xahiş bəlağətə yaxın deyil.»

Halbuki, təfsirçilərin dediklərinə diqqət edilsə və ayə haqqında araşdırma aparılsa, aydın olar ki, bu ayə Məkki surədə yerləşsə də, özü Mədənidir.

**6. Surənin məqsədinə tam nəzər salmaq və onun əsas məqsədinə diqqət yetirmək**

Surə lüğətdə şəhərin hasarına deyirlər ki, qədimdə şəhəri əhatəyə alırdılar. Sonra isə Quran ayələrinin məcmuəsinə aid edildi. Hər bir surədə müxtəlif bəhslər diqqətə çatdırılsa da, hər bir surənin özünə xas məqsədi və müəyyən hədəfi vardır;tarix, əqidə, məsəl, hökmlər və sairə surədə toplanmışdır. Lakin surə həkimin resepti kimidir ki, o müxtəlif dərmanlarla müəyyən bir xəstəlik müalicə olunur. Məsələn, Nur surəsində məqsəd ictimai iffəti qorumaqdır ki, Allahı tanıma, məadı tanıma, izdivac hökmləri, hicab, Lian cərəyanı, ittiham hökmü və sairə bu məqsədin təmin olunması üçün olan bəhslərdir. Nə üçün insan ağıl, qəlbə malik varlıqdır? Bütün bunlar üçün həmin mövzuda xüsusi söz vardır və insanı tam vücudu ilə hidayət edir.

**7. Quranın üslubu və bəyan xüsusiyyətlərini bilmək**

1) Sadə bəyan və dərin bəyan

Nəhl surəsinin şərif 125-ci ayəsinə əsasən üçtərəfli bəyan və dəvət üslubu dərk olunur.

ادْعُ إِلِى سَبِيلِ رَبِّكَ بِالْحِكْمَةِ وَالْمَوْعِظَةِ الْحَسَنَةِ وَجَادِلْهُم بِالَّتِي هِيَ أَحْسَنُ إِنَّ رَبَّكَ هُوَ أَعْلَمُ بِمَن ضَلَّ عَن سَبِيلِهِ وَهُوَ أَعْلَمُ بِالْمُهْتَدِينَ

«(İnsanları) Rəbbinin yoluna hikmətli məntiq, qane edən dəlillər və gözəl, oyadıcı və ibrətamiz nəsihətlə dəvət et və onlarla (müxaliflərlə) ən gözəl tərzdə mübahisə et. (Sənin vəzifən budur. Onlara gəldikdə isə) əlbəttə, sənin Rəbbin Özü Onun yolundan azanları daha yaxşı bilir və doğru yolda olanları daha yaxşı tanıyır.»

A) Hikmət

B) Gözəl moizə

V) Ən gözəl mübahisə

Quran mütəfəkkir insanlar üçün hikmətlə, orta və adi adamlarla gözəl moizə ilə, mübahisə əhli olan insanlarla ən gözəl mübahisə ilə danışır.

Zumər surəsinin 27-ci ayəsinə əsasən başa düşürük ki, Quran özünün hər mətləbi üçün elmi bəyan və dəqiq izahdan əlavə misal da çəkir ki, əhali kütləsi də başa düşsün.

وَلَقَدْ ضَرَبْنَا لِلنَّاسِ فِي هَذَا الْقُرْآنِ مِن كُلِّ مَثَلٍ لَّعَلَّهُمْ يَتَذَكَّرُونَ

«Doğrudan da Biz bu Quranda insanlar üçün bəlkə ibrət götürdülər deyə hər cür məsəl çəkdik.»

Quran məsəl çəkmək yolu ilə çalışır ki, yüksək mərifətlərin çoxunu endirsin ki, adi adamlar məsəllərin kölgəsində yüksəlsinlər, moizədən bəhrələnsinlər, müsbət bəhsdən bəhrə götürsünlər və hikmətlə danışsınlar.

Bu üslubla Quran həm hamı üçündür, həm də fərdi əvvəldən hikmətlə tərbiyələndirir.

Mətləbin aydın olması üçün bir neçə nümunə göstəririk:

Ənam surəsinin 59-cu ayəsi təmsillə yüksək mətləblər və ali əzəməti hamı üçün bəyan edir.

وَعِندَهُ مَفَاتِحُ الْغَيْبِ لاَ يَعْلَمُهَا إِلاَّ هُوَ وَيَعْلَمُ مَا فِي الْبَرِّ وَالْبَحْرِ وَمَا تَسْقُطُ مِن وَرَقَةٍ إِلاَّ يَعْلَمُهَا وَلاَ حَبَّةٍ فِي ظُلُمَاتِ الأَرْضِ وَلاَ رَطْبٍ وَلاَ يَابِسٍ إِلاَّ فِي كِتَابٍ مُّبِينٍ

«Qeyb xəzinələrinin («ol!» kəlməsinin altında olan) açarı (və onların həqiqətləri) Onun yanındadır. Onları Ondan başqa heç kəs bilmir. (Varlıq aləminə qədəm

qoyanlardan) quruda və dəryada olanı bilir. Yerə elə bir yarpaq düşmür ki, O, onu bilməsin. Həmçinin (Onun əzəli elmində və) aydın olan kitabda mövcud olmadan yerin qaranlıqlarında (altında) bir toxum və (meyvə və dənli bitkilərdən) heç bir quru və yaş yerə düşmür.»

## Təsdiq və inkar üslubu

Allah-Təalanın Quranda insan üçün bəyan etdiyi mühüm məsələlərdən biri əfali tövhiddir. İnsan nə mütləq azaddır, nə də məcbur. İnsan Allahın izni ilə İlahi xilafəti öhdəsinə ala və İlahi izn ilə şəfaətçi ola bilər.

Quran bir ayədə inkar üslubu ilə, digər ayədə isə təsdiq üslubu ilə o məqamın insandan zati inkarına və ərəzi olmasına işarə etmişdir ki, insan Allahın əzəmətini dərk etsin və bütün hallarda özünün heç olmasını hiss etsin.

Nümunə üçün bəzi qeyb ayələrini qeyd edirik:

«De: «Mən sizə Allahın xəzinələri mənim yanımdadır demirəm (şeyləri «ol» deməklə yaratmaq və bir şey istəyənlərin ehtiyacını əldəki miqdar azalmadan təmin etmək qüdrətim yoxdur), qeyb elmini də bilmirəm və (həmçinin) sizə «mən mələyəm» demirəm. Mən yalnız mənə edilən vəhyə tabe oluram. (Buna görə də mən vəhyə tabe olduğum üçün gözüaçıq və hər şeyi görənəm, vəhydən üz döndərən hər bir kəs isə kordur.)» De: «Korla görən birdirlərmi? Bəs niyə fikirləşmirsiniz?» (Ənam surəsi, ayə 50)

«Və mən sizə Allahın (malların çoxalması, istəklərin yerinə yetirilməsi, xəstələrin şəfası kimi rəhmət) xəzinələrinin mənim ixtiyarımda olmasını demirəm, mən qeybi də bilmirəm, mən mələyəm demirəm və gözlərinizin xarlıq və həqirliklə baxdığı kəslər haqqında «Allah onlara heç vaxt bir xeyir verməyəcəkdir» də demirəm. Allah onların batinlərində olanı daha yaxşı bilir. Əgər elə desəm, mütləq zalımlardan olaram.» (Ənam surəsinin 50-ci ayəsinə müraciət edin.)» (Hud surəsi, ayə 31)

عَالِمُ الْغَيْبِ فَلَا يُظْهِرُ عَلَى غَيْبِهِ أَحَدًا

«(Allah) qeybi biləndir və öz qeybinin sirlərindən heç kimi agah etməz.» (Cinn surəsi, ayə 26)

وَمَا هُوَ عَلَى الْغَيْبِ بِضَنِينٍ

«Və o qeyb (vəhy vasitəsilə aldıqları barəsində) xəsis deyildir (ki, onu gizlətsin, dəyişdirsin, yaxud təxirə salsın və ya qarışdırsın).» (Təkvir surəsi, ayə 24)

Bu ayələrə əsasən dərk edirik ki, Allah istəmir desin ki, heç kəs, hətta Allah övliyaları da hal-hazırda qeybi bilmirlər. Çünki özü başqa ayələrdə təsdiq etmişdir. Bunu inkar etməklə demək istəyir ki, bu Allaha məxsusdur və İlahi iznlə olmalıdır.

Yəni Allah zatən qeybə alimdir və qeyb elminin həqiqi maliki Allahdır. Qeybi bilmə bir şəxsin digər şəxsdən öyrənməsi ilə olmur. Allah kimə istəsə, qeyb elmini əta edər, yəni qeyb elmi Allaha məxsusdur. Belə deyil ki, əgər Allah kimisə qeybə alim etmək istəsə, bacarmaz.

Beləcə isbat və inkar məna kəsb edir.

Ayələrin mənası budur ki, kimsə adi elmlərdən fərqli olaraq təlim və təhsil yolları ilə qeyb elmini öyrənə bilməz.

Əgər bir ayədə şəfaət inkar olunmuş, digərində isbat olunmuşsa da, üçüncü ayədə bu təsdiq və inkar məna kəsb etmişdir. Təfsirçinin bu üslubla tanışlığı onu tez-tələsik fikirlərdən xilas edər.



Belə bəhslər hidayət ayələrində də mövcuddur. Hidayət məxsusi olsa da, başqaları iznlə hadi olurlar.

Əlbəttə, bu ayələrin başqa bir incə mənası da ola bilər ki, qeybi bilən Allahdır, izn almış insan Onun məzhəridir. Şəfaətçi Allahdır və izn almış şəfi insan Onun məzhəridir. Hidayətçi Odur, peyğəmbər və övliyalar Onun məzhəridirlər.

يَا أَيُّهَا النَّاسُ أَنتُمُ الْفُقَرَاء إِلَى اللَّهِ وَاللَّهُ هُوَ الْغَنِيُّ الْحَمِيدُ

«Ey insanlar, sizin hamınız Allaha möhtacsınız. Allah isə (heç kəsə) möhtac deyil. (Onun) sifətləri və işləri öyülmüşdür (O, bəşərin xaliqi, qoruyucusu və ruzi verənidir, beləliklə məxluqlar tamamilə möhtac, O isə əsla möhtac deyil).» (Fatir surəsi, ayə 15)

Bu xitab insanadır ki, insan hər bir halda fəqirdir və zatən heç bir şeyi yoxdur, nəyi varsa Allahdandır.

Allah belə ayələr vasitəsilə insanı başa salmağa çalışır ki, sənin nəyin varsa məndəndir.

## Hidayət üslubu

Quran rəsmi bir dərs kitabı deyil ki, hər mövzunu ayrıca bir fəsildə, nizamlı hissələr və bəhslərlə araşdırsın. Quranın üslubu hadisə və cərəyanlarda hidayət üslubudur.Quran insanları həyatda, yaşayışda hidayət edir. Buna görə həkimlərin reseptinə bənzəyir ki, insanlar üçün xəstəlik və zəifliklərinə görə dərman müəyyən edir. Mümkündür ki, bəzi dərmanlar olsun ki, başqa xəstəliyin müalicəsinə xidmət etsin. Buna görə Quranda bir mətləbin yönümləri pərakəndədir və o mövzuda ayələri toplamaqla yüksək maarifə çatmaq olar. Bəziləri bu incəliyi bilmədən bir ayədən yapışmış və bu mövzuda digər ayələri nəzərə almamışlar və ayələrdən səhv mətləblər əldə etmişlər. Məsələn,

a) Əhzab surəsinin 33-cü ayəsinə əsasən nəticə almaq olar ki, Əhli-beyt(ə) Quran təfsirçisidirlər.

وَقَرْنَ فِي بُيُوتِكُنَّ وَلَا تَبَرَّجْنَ تَبَرُّجَ الْجَاهِلِيَّةِ الْأُولَى وَأَقِمْنَ الصَّلَاةَ وَآتِينَ الزَّكَاةَ
وَأَطِعْنَ اللَّهَ وَرَسُولَهُ إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

«Vüqarla öz evlərinizdə qərar tutun, ilkin cahiliyyət dövründəki (qadınlar) çıxdığı kimi (bəzək-düzəkli, hicaba riayət etmədən) camaat arasına çıxmayın, namaz qılın və zəkat verin, (şəriət hökmlərində) Allaha və (ilahi rəhbərliyə aid məsələlərdə) Onun Rəsuluna itaət edin, həqiqətən, Allah (xüsusi yaradılış iradəsi ilə) siz (Peyğəmbərin) Əhli – Beyt(in)dən (əqidə, əxlaq və əməllərdə) hər cür (növ) pisliyi təmizləmək və sizi – paklığın bütün cəhətlərində – pak etmək istəyir.»

b) Risalət əcri ayələrindən belə nəticə almaq olar ki, bu əcr insanın Allaha tərəf yol tapmasıdır və Əhli-beyti sevmək həmin Əhli-beytə tərəf getməkdir.

v) Qurandakı şəfaət ayələrindən nəticə almaq olar ki, Qiyamətdə şəfaət vardır, amma onun da şərtləri mövcuddur. Bu şərtlər həm şəfaət edən, həm şəfaət olunan, həm də əmələ aiddir.

(Davamı gələn sayımızda)

Məhəmməd Baqir Saivər

# Nəhcül-bəlağə-də birlik və vəhdət



## (II hissə)

### Mötədillik və mülayimlik

Cəmiyyətdə birlik və vəhdətin yaranmasında mühüm amillərdən biri də mötədillik və hər növ ifrat-təfritdən uzaq olmaqdır. Yaşadığımız dünya İslam dininin əmrlərinə və prinsiplərinə ikili standartlarla yanaşmaqdadır. Bəzi İslam ölkələri ölkənin idarə olunması üçün hələ də İslam təlimlərinə uyğun qanun və qaydalar qəbul etməyiblər və yalnız adlarının müsəlman olmaları ilə kifayətlənirlər. Bir qrup ölkələrdə isə İslam hökmləri çox çətin və dəhşətli şəkildə icra edilir ki, bu da İslam dininin dünyada dəhşətli və qorxunc bir din kimi tanıdılmasına səbəb olur. İmam Əlinin (ə) baxışlarında bu əqidə və rəftarların hər ikisi pislənilir. O həzrət buyurur: «Qarşısında Cənnətlə Cəhənnəm olan hər bir kəs asudə deyil. (Birinci, saleh əməllərlə) cəld səy göstərən (İlahi əzabdan) nicat tapmışdır. (İkinci) Haqqı axtaran ki, tənbəldir və (Allahın rəhmət və bağışlamağına) ümid edir. (Üçüncü) Təqsirkar (haqqa göz yuman), ilahi ataş və əzab içində həlak olandır. Yolun sağı və solu ilə getmək azğınlığa gətirib çıxarar. Doğru yol orta yoldur."

Və ya xəvaricə buyurur: «(Şeytanın arxasınca getməyin təsirindən) tezliklə iki tayfa mənə görə həlak olacaq: dostluqda ifrata varan dost. Belə ki, sonsuz məhəbbəti onu batil yola (onu Allah və ya peyğəmbər sanmaları kimi) çəkəcək. Digəri isə, öz həddini aşan və sonsuz düşmənçiliyinin nahaq yola vadar etdiyi (xəvaric və nəvasib kimi,) düşməndir. Mənim haqqımda ən yaxşı iş görənlər mötədil dəstədəndirlər. Belə isə, bu mötədil dəstəyə yoldaş olub, böyük və parlaq ürəyin (adil sultanın ardıcıllarının) ardınca gedin.»

### İtaət və tabeçilik

İtaət və tabeçilik hər bir ictimai təşkilatın əsas prinsiplərindən biridir. Müəyyən hədəfə çatmaq üçün bir qrup insanı bir araya gətirilən hər hansı bir təşkilatda əmrə tabe olmaq və itaət etmək mühüm rol oynayır və bu itaət insanın bütün bədən üzvlərinin başa tabe olması kimidir. İmam Əli (ə) müsəlmanların birliyinin vacibliyini qeyd edərək buyurur: «And olsun Allaha! Düşünürəm ki, tezliklə bu qövm sizə qalib gələcək. Çünki onlar batil olduqları halda əl-ələ verib birlikdədirlər, lakin siz haqq olduğunuz halda pərakəndəsiniz. Siz haqq olan imamınıza itaət etmirsiniz, lakin onlar nahaq olan imamlarına tabedirlər.»

Bəli, əgər bir cəmiyyətdə itaət və tabeçiliyin rolu aradan getsə böyük rəhbər, ərəblərin tək qılınc oynadanı, Quran hafizi və ədalət carçısı olan Əli (ə) kimi şəxsiyyət belə bunun müqabilində aciz qalar. O həzrət buyurur: «İtaət edilməyən rəhbərin fikir və rəyi nə ola bilər ki?»

### Müştərəkliklərə təkid etmək və fərqlərdən çəkinmək

Hər şeydən çox müsəlman cəmiyyətlərini təhdid edən məsələlərdən biri də bəzi dini mövzularda mövcud ixtilaf və səliqə fərqlərini böyütməkdir. Bu problemlərin bir hissəsi müsəlmanların dini təlimləri doğru-düzgün qavraya bilməməklərinə qayıdırsa, böyük bir hissəsi isə onların ortaq düşmənlərinin fəaliyyətinə aiddir. Onlar mövcud ixtilafları təhlil edərək özlərinin çirkin və şeytani məqsədlərinə çatmaq üçün ixtilaf və təfriqə odunu daha da alovlandırırlar. Həzrət Əli (ə) xəvaricə buyurmuşdu: «Quran ən böyük dərdlərə yəni, küfr, nifaq, ziyankarlıq və çaşqınlıq kimi dərdlərə şəfadır.»

### Xəbərlər və hadisələr haqqında düşünmək

Yaşadığımız müasir dövrdə xəbər və hadisələr mümkün olan ən qısa müddətdə okeanların o tərəfindən cəzbedici və çaşdırıcı formalarla insanların beyinlərinə yeridilir. Qərb dünyası özünün çirkin hədəflərini demokratiya, insan haqları, etnik qrupların haqqı, söz və qələm azadlığı, insana hörmət, qadın hüququ və s. bu kimi sözlərlə bəzəyərək baş vermiş hadisələri özünə sərf etdiyi kimi təhlil edir və beləliklə ictimai rəyə təsir edir. Onlar tərəfindən aparılan belə məqsədyönlü təbliğatlardan biri də məzhəblər arası problem və ixtilaflar şişirdilir və beləliklə ölkə daxili, regional və beynəlxalq səviyyələrdə müsəlmanlar arasında təfriqə salırlar. İmam Əli (ə) müsəlmanlar arasında baş verə biləcək təfriqə və ixtilafın qarşısını almaq üçün

buyurmuşdur: «Hər bir xəbəri eşitdikdə, onu doğru-düzgün anlayın və onun haqqında düşünün. Çünki elmi nəql edən çox, lakin onun haqqında düşünən azdır."

Əlbəttə etiraf etməliyik ki, İmam Əlinin (ə) dövründə müsəlmanların problemləri indiki dövrdə olduğu kimi regional və beynəlxalq səviyyəli problemlər deyildi, lakin o həzrətin hər bir xəbəri dəqiq şəkildə araşdırılması barədə buyurduğu kəlam öz qüvvəsində qalır. Əsl müsəlman eşitdiyi hər bir xəbəri dəqiq şəkildə araşdırmadan və onun doğru olub-olmadığına əmin olmadan nə qəbul, nə də yaymamalıdır. Bunun mənası odur ki, əgər bu qiymətli kəlamı keçmiş xəbərlərə tətbiq etsək müsəlmanlar arasında birliyin yaranmasına səbəb olacaq və əgər onu indiki və gələcək xəbərlərə tətbiq etsək hər növ təfriqə və ixtilafın qarşısı alınacaq.

## İnsanların məmurlardan razı olmaları

Əmirəl-möminin Əli (ə) müsəlmanlar arasında vəhdət və birliyin qorunması yollarından birini də insanların məmurlardan və hakimlərdən razı olmalarında görürdü. O həzrətin nəzərinə görə bir çox hallarda cəmiyyətdə yaranan təfriqə və ixtilaflar insanların məmur və hakimlərdən narazı olmaları səbəbindən baş verir. İmam Əli (ə) tək-tək insanların məmur və hakimlərdən razı olmalarını onları tanımaq və dəyərləndirmək üçün əsas meyar hesab edirdi. Başqa sözlə əgər bir məmur insanların hüquqlarını qorumaqda süstlük edirdisə və ya cəmiyyətdə ədaləti bərqərar etməkdə nöqsanla üzləşirdisə və insanlarla rəftarında İslam ədəb və əxlaq qaydalarına riayət etmirdisə, onu doğru yola çağırır və bu fayda vermədikdə onu dərhal işdən uzaqlaşdırırdı. İmam Əli əleyhis-salamın, onun tərəfindən Ərdəşir Xurrədəki valisi Musqələ ibn Hubəyrə Şeybaniyə olan məktubu bu qəbildən olan məktublarındandır: «Mənə bir xəbər çatıb ki, əgər sən onu etmisənsə öz Allahını qəzəbləndirmisən və imam və rəhbərini hirsləndirmisən: sən müsəlmanların nizə və atlarının topladığı və yolunda qanları axıdılmış mallarını səni seçmiş ərəb qohumların arasında bölüşdürmüsən.»

Başqa bir yerdə öz məmurlarından birinə buyurub: «Hakim olduğun şəhərin əkinçiləri sənin kobudluğun, daşürəkliliyin, onları xar etməyin və zülmkarlığından şikayət ediblər. Mən fikirləşdim. Onları sənin onlara çox yaxınlaşmağına layiq görmədim. Çünki onlar müşrikdirlər. Amma onlar uzaq olmaq və zülm edilməyə də layiq deyildirlər. Çünki peyman bağlayıblar. Buna görə də onlarla sərtliklə qarışıq olan mehribançılığı öz şüarın et və onlarla sərtqəlblilik və mehribançılıq arasında rəftar et. Allahın istəyi ilə onlar üçün yaxınlaşdırmaqla lap yaxınlaşdırmağı və uzaqlaşdırmaqla lap uzaqlaşdırmağı bir-birinə qarışdır (mötədilliyi əldən vermə).»

Göründüyü kimi İmam Əli (ə) özünün bütün məmurlarını ədalətə və mötədilliyə çağırır və hər növ ifrata varmaqdan uzaqlaşdırır. O həzrət İslam hökumətində yaşayam dinindən, irqindən asılı olmayaraq bütün insanların bərabər hüquqa malik olmalarını bildirirdi. Aydındır ki, belə bir cəmiyyətdə heç vaxt təfriqə və nifaq baş verməyəcək, çünki bütün vətəndaşlar hakimiyyəti özlərinki hesab edirlər.

## Başqalarının fikir və rəylərindən istifadə etmək

Bildiyimiz kimi həm Quran ayələrində, həm İslam Peyğəmbərinin (s) hədislərində, həm də məsum imamların (ə) və din alimlərinin buyruqlarında başqalarının fikir və rəylərindən istifadə etmək bəyənilir. Hər bir ideya və fikrin ümumi, möhkəm və daha az səhvə malik olması üçün həmin ideya müəyyən bir prosesdə başqalarının rəy və tənqidlərini özünə cəzb etməklə kamilləşir. Başqalarının fikir və ideyalarından asanlıqla istifadə edilən bir cəmiyyətdə vəhdət və birlik sütunları daha möhkəm olar. İmam Əli (ə) bu barədə buyurur: «Hər kəs başqalarının rəylərinə diqqət yetirsə, öz səhvlərini asanlıqla tanıyar.»

Məqalənin sonunda İslam ümmətinin vəhdət və birliyinə mane olan ən ümdə məsələlərin adlarını qeyd edirik. Bütün bunlar Həzrət Əlinin (ə) nurani və dəyərli kəlamlarında çox geniş şəkildə öz əksini tapmışdır və asanlıqla o həzrətin xütbələrinin, məktublarının və qısa kəlamlarının mətnindən istixrac olunur. İmam Əli (ə) aşağıdakıları müsəlmanların vəhdətinə mane olan əsas amillərdən hesab edir:

1. Həsəd.
2. Dünya və axirət məsələlərini bilməmək və ya bu haqda yetərincə elmə malik olmamaq.
3. Kəskin şövqlə hakimiyyətə can atmaq.
4. Allahı yad etməkdən uzaqlaşmaq.
5. Kin saxlamaq və bunu uzun müddət davam etdirmək.
6. Başqaları ilə həmfikir və həməqidə olmaqdan qaçmaq.
7. Cəmiyyətdə ədalətsizlik və zülm.
8. Həmnövlərə qarşı töhmət və böhtan.
9. İşlərdə ifratçılığa yol verməк.
10. Nəfsi istəkləri yerinə yetirmək.
11. Bidət yaratmaq və bidətlərə əməl etmək.
12. İxtilaflara israr etmək.
13. İşlərdə şəkk-şübhə və tərəddüd.

İmam Əli (ə) Təlhə və Zübeyr haqqında buyurub: «Bəsirətim və gözüaçıqlığım mənimlədir, səhvə yönəltmədim və səhv yola salınmadım. Onlar zülmkar və günahkar bir dəstədirlər. Qara gil, əqrəb zəhəri və zülmət şübhəsi onlardadır. Bu iş aşkar oldu. Batil kökündən qoparıldı.»

1. Fitnəgərlik

«Özünüzü fitnəyə salmayın və fitnə yolundan qayıdın. Öz canıma and olsun ki, fitnə odunda mömin yanacaq, müsəlman olmayan isə amanda qalacaq.»

2. Elmli olmadığı halda özünü alim adlandırmaq

«Bəndələr arasında eləsi var ki, özünü alim adlandırır, halbuki onda elmdən heç bir əsər-əlamət yoxdur. Bir ovuc cahil fikirləri cahillərdən və bir ovuc çaşqınlıqları çaşqınlardan öyrənib, insanların yolunda tələ qurmuş, batil sözlər deyir, Allahın Kitabını öz rəyləri ilə təfsir edir və həqiqəti öz istədikləri kimi bu tərəfə, o tərəfə çəkirlər.»

**Məcid Kamrani**

# QİYAMƏT GÜNÜNÜN SUALLARI



Yaxşı olar ki, insan qiyamət günü hansı sualların veriləcəyini bilsin. Bu barədə Quran ayələri və hədislər çoxdur. Əgər bunların hamısını qeyd etmək istəsək, çox vaxt aparar. Buna görə də yalnız qiyamət mövzusunda danışaq. Orada nə haqda sual edəcəklərini sorğu-sualı nədən başlayacaqlarını bilmək daha yaxşı olar. Qeyd etmək lazımdır ki, qəbirdə əməl barəsində deyil, etiqad barəsində soruşulacaq. Orada Allah, qiblə, kitab, peyğəmbər və imamətə etiqad, inam haqqında soruşulacaq. İnsanın fəaliyyəti də bağlanar. Yəni «la ilahə illəllah» deməyə də qüdrəti olmaz. Amma əgər özündən sonra hansısa bir yaxşı əməl qoyubsa, məktəb, yol, körpü və sairə tikibsə, yaxşı övlad böyüdübsə, onların istifadəsindən həmin şəxsə savablar gələr.

Əgər bir ağac əkmisənsə, biri onun kölgəsində oturub «Allah bunu əkənə rəhmət eləsin»- desə onu əkənə savab gəlir. Hətta əgər bir pis əməlin təməlini qoyub çıxıb gedibsənsə, ikitirəlik salmısan, yaxud yalan danışıb bir dəstəni yoldan çıxardıbsansa, nə qədər ki, onlar var, sənin də cəzan gəlir, ta qiyamətə qədər. Odur ki, Həzrət Peyğəmbər (s) buyurur: -Qiyamət günü başlandıqda mən Həzrət Əli (ə) ilə Siratın (yolunun) üstündə dayanacağam. Ora (qiyamət günü) dünya deyil ki, biri «demokratiya» digəri «apellyasiya məhkəməsi» və s. deyə. Xeyr, əsla. Hətta indi də bu sözlərə inanan yoxdur. Bunların hamısı boş və mənasızdır. Nə deyənlər inanır, nə eşidənlər. Hər zaman bu cür şüarlar olub. Qiyamətdə söz yalnız Allahın sözüdür. Heç kəsə ixtiyar verilməyəcək. Əgər kiməsə izn verilsə, o da Allahın izni ilə olacaq. O, öz haqqını kimə istəsə verəcək. Heç kəs buna etiraz edə bilməz. Necə ki, əgər sənin maşının varsa kimə istəsən verə bilərsən. Heç kim sənə niyə belə edirsən deyə bilməz, hətta oğlun da. Bu da o cürdür. Allah buyurur ki, qiyamətdə peyğəmbərə imam və şəhidlərə şəfaət etmək üçün icazə verəcəyəm. Eləcə də imanlı, təqvalı alimlərə də şəfaət etməyə icazə verəcəyəm.

Alimlə abid cənnətə getdikdə abid gedəcək, amma alimi saxlayıb «hara gedirsən, dayan. Sən alimsən, abid deyilsən. Sənin ümmətin var. Dayan, onlara da şəfaət elə. Cənnətə onlarla bir get»-deyiləcək. Amma gərək alim biəməl, aləmi bir-birinə qatan yox, əsl təqvalı alim olsun. Bəli alimi əgər bir qəbristanlıqda dəfn etsələr, onun hörmətinə Allah o qəbristanlığın əhlini bağışlayar. Quranda bir «qəryə» (kənd) sözü var, bir dənə də «mədinə» (şəhər) Ora bir yerdir ki, Quran o yerə gah kənd deyir, gah da şəhər. Bir gün səhabələr dedilər: -Ya Rəsulullah, bunu ya kənd desin, ya da şəhər. Əgər kənddirsə, nə üçün şəhər deyir? Yox, əgər şəhərdirsə, niyə kənd deyir?

Rəsulullah (s) cavab verdi: «Allah ora əvvəllər kənd deyirdi. Sonra ora təqvalı bir şəxs gedərək yaşadığı üçün Allah oranı şəhər adlandırdı. Bir yerin mədəniyyəti əsas etibar ilə orada yaşayan alimlərlə ölçülür. Nə qədər ki, orada alim yox idi kənd deyirdi. Alim gəldiyi üçün ora şəhər oldu. Qiyamət günü şəfaət edənlərin hamısının rəhbəri Xanım Zəhra olacaq. Cənnətin ixtiyarını isə Əli (ə)-a vermişəm. O, hər kəsdən razıdırsa, mən də razıyam. Odur ki, hədislərdə «Həzrət Əli (ə) cənnətlə cəhənnəmi böləndir»-deyə buyurulur. Bu adı ona görə ona veriblər ki, Peyğəmbər (s) buyurur: -Qiyamət günü mən və Əli (ə) yolun üstündə dayanaraq camaatla bir-bir danışacağıq.

Mümkündür ki, biri bu qədər insanla danışmağa vaxt lazımdır desin. Qeyd etməliyəm ki, qiyamət günü elə bir gündür ki, heç kəsin orada tələsik işi yoxdur. Orada vaxt elə onun üçündür ki, bir-bir bütün suallara cavab versinlər. Allah Quranda «Saxlayın onları, onlar sorğulanacaqlar» deyə buyurur. Bu ayəni eşidən müsəlmanlar Peyğəmbərdən (s)

sual etdilər: «Ya Rəsulallah, bu cümlənin mənası nədir? O həzrət buyurdu ki, qiyamət günü mən və Əli (ə) «Sirat» körpüsünün üstündən keçmək istəyən hər kəsə «onu saxlayın söz soruşulacaq» deyəcəyik. Orada nə soruşulacaq? Əlinin (ə) vilayəti. Əgər kimdə Əlinin (ə) vilayəti olsa, deməli, həmin körpüdən keçə bilər. Əgər yoxdursa, Əlinin (ə) vilayətini qəbul etməyibsə, deməli onun sənədinə giriş izni vurulmayıb. Necə ki, izn şərti olmadan kimisə xarici ölkəyə buraxmazlar. Cənnətin izni Əlinin məhəbbətidir. Vilayəti olmayanı cənnətə buraxmazlar. Bu vilayətin hakimiyyəti Allahındır ki, onu Peyğəmbərə (s), o da Əliyə (ə) verib.

Həzrət Peyğəmbər (s) buyurur:- İnsandan soruşulacaq ilk sual biz əhli-beytin məhəbbəti ilə bağlıdır.

İmam Sadiq (ə) buyurmuşdur: -İnsanlar qiyamətdə cərgədə dayandıqdan sonra onlardan soruşulacaq:

1-ci sual: vacib namazlar,

2-ci sual: vacibi-zəkat,

3-cü sual: vacibi-oruc,

4-cü sual: vacibi-həcc,

5-ci sual: biz əhli-beytin vilayət və məhəbbəti ilə bağlıdır.

O Həzrət (ə) daha sonra belə buyurur: -Əgər bir adam bizim vilayətimizi qəbul etdikdən sonra dünyadan köçsə, onun namazı, orucu, xumsu, zəkatı və həcci də qəbul olunacaq, əgər vilayət olmasa, bu əməllərin heç biri dəyərli olmayacaq.

İmam Sadiq (ə) buyurmuşdur:

-İslamın 5 əsası vardır:

1. Namaz;
2. Oruc;
3. Zəkat;
4. Həcc;
5. Vilayət.

Daha sonra Zürarə Həzrət İmam Sadiqə (ə) sual verdi: «Ey rəsulullahın oğlu bunlardan hansı daha üstündür?»

Vilayət bunların hamısından üstündür. Əgər vilayət olmasa, bu əməllər sahibsiz hesab olunur. Ümumiyyətlə, qiyamətdə insana verilən bütün nemətlərdən sual olunacaq necə ki, Quran ayəsində belə buyurulur: «Qiyamət günü nemətlərdən soruşulacaq». İmam Sadiqdən (ə) soruşdular: «Həmin ayənin mənası nədir?»

Həzrət (ə) buyurdu: -Allah bu ümmətə



nə veribsə, onun barəsində soruşulacaq.

-Qiyamət günü insanın ömrü, cavanlığı, malı haqqında soruşacaqlar.

-Qiyamət günü insan qədəm götürmək istədikdə ondan 4 məsələ barədə soruşacaqlar:

1. Ömrünü harada keçirdiyini;
2. Cavanlığı necə keçirdiyini;
3. Var-dövləti, malı haradan qazanıb hara sərf etdiyini;
4. Əhli-beytin məhəbbətini.

-Qiyamət günü insandan gözündən, qulağından, qəlbindən, ürəyindən və bir də bağlı olan hər bir şey barədə soruşacaqlar. Həzrət (ə) buyurur ki, qiyamətdə həm göz, həm qulaq, həm də ürəkdən sual olunacaq. Həzrətdən (s) bunun nə demək olduğunu soruşduqda buyurdu: -Qulaq barəsində olan sual budur ki, nəyə qulaq asmısan? Nə üçün qeybətə qulaq asmısan? Mömin qardaşın haqqında danışıb qeybət edəndə eşitdiyin halda etiraz etmirdin. Əgər buna etiraz edə bilmirsənsə, gərək məclisi tərk edəydin. Gözdən baxdığı yerlər barəsində, harama, qadağan olunmuş şeylərə baxdığı barədə soruşulacaq. Ürəkdən kimə və nəyə məhəbbət etdiyi barədə soruşacaqlar.

Çünki Peyğəmbər (s) buyurub:

-Qiyamətdə hər kəs dünyada məhəbbət etdiyi şeylə məşhur olacaq, hətta daşı sevib ona ürək bağlasa, qiyamət səhnəsinə daşla birgə gələr. Bir gün Ənəs ibn Malik Peyğəmbərin (s) yanına gəlib soruşdu: «Ya rəsulallah, qiyamət nə vaxt olacaq?»

Elə bu vaxt azan verildi. Namaz vaxtı yetişdiyi üçün Həzrət (s) durub namaza başladı. (Yəni namaz vaxtı oldusa, dur namazı qıl. Hətta sual da versələr.)

Namazdan sonra Həzrət (s) ondan soruşdu: «Qiyamətə nə hazırlamısan?» Dedi: «Ya rəsulallah, mənim namaz, oruc, sən və əhli-beytinin məhəbbətindən başqa əlimdə bir şeyim yoxdur».

Həzrət (s) cavabında buyurdu:

-Hər kimi sevirsənsə, qiyamətdə də onunla olacaqsan. Peyğəmbər (s) buyurur ki, «camaat islama gələndə nə qədər sevinmişdisə, bu sözə də o qədər sevindi».

Seyyid Əli Əkbər Ocaq Necat

# ZÜHURDAN ÖNCƏKİ ƏLAMƏTLƏR






***Allah-taala həzrət Məhdinin (əc.) zühurunun böyük əhəmiyyəti və habelə yanılma və sui-istifadələrin qarşısını almaq üçün, "Zühurdan öncəki nişanələr" adıyla bəzi əlamətlər müəyyənləşdirmişdir. Zühur əlamətlərini ümumi olaraq iki qismə bölmək olar: Qəti əlamətlər və qeyri-qəti əlamətlər. Səhih və ya mütəvatir hədislərdə gəlmiş və onların baş verəcəyinə təkid göstərilmiş əlamətlər Qəti əlamətlər adlanır; məsələn: Süfyaninin zahir olması və Nəfsi-zəkiyyənin qətli. Qeyri-qəti əlamətlər isə ya qeyri-səhih hədisldə gəlmiş və ya məsum tərəfindən qətiliyi göstərilməmişdir; məsələn: 5 dəfə ayın və 15 dəfə günün tutulması.***

Digər bir baxışdan isə, bu əlamətləri üç yerə bölmək olar: Yaranış aləmində olan qeyri-təbii əlamətlər, ictimai münasibətlərdə və insanların rəftarında olan əlamətlər və təbii fenomenlər; məsələn: Ramazan ayında ardıcıl olaraq gün və ay tutulmaları, şərq səmasında böyük alovun şölələnməsi, günəşin qərbdən doğması, fəsad və günahların artması, yalançı peyğəmbərlərin çoxalması və insanların yeddidə beşinin müharibələrdə həlak olması. Zühur əlamətlərini araşdırarkən unutmaq lazım deyil ki, onların hər hansı birinin həyata keçməməsi zühurun təxiri demək deyil. Çünki, "Allah fərəc və zühura yalnız bircə gecədə şərait yaradacaqdır". Buna görə də daim intizarda olmaq lazımdır, belə ki, zühura hazırlıq hər gün yeniləşməlidir.

## ZÜHUR

Səmadan gələn nida bütün insanlara həzrət Məhdinin (əc.) zühur xəbərini verəcəkdir. İmam Məhdi (əc.) öz ümumdünya qiyamına Məscidül-həramda Kəbənin yanından başlayacaqdır. İmamın ən yaxşıköməkçiləri və müntəzirləri olan 313 nəfər, onunla beyət etmək üçün Kəbədə ətrafına toplaşacaqlar. Həzrət İsa Məsih (ə) səmadan enib öz namazını İmam Məhdiyə (əc.) iqtida edəcəkdir.

İmam Məhdinin (əc.) dünyanın müxtəlif bölgələrindən olan köməkçiləri Məkkəyə axışıb, o həzrətin rəhbərliyi ilə İraqa doğru hərəkət edəcəklər. Süfyaninin qoşunu "Beyda" məntəqəsində həlak ediləcək və qalib İslam ordusu bütün dünyanı fəth edəcəkdir. Həzrət Məhdi (əc.) Kufə şəhərini öz dövlətinin paytaxtı edəcəkdir.

## ZÜHURDAN SONRAKI DÖVR

Həzrət Məhdinin (əc.) zühurundan sonrakı dövr, məsumların hədislərində müxtəlif baxışlardan izah olunmuşdur:

**1-Ümumdünya İslam hakimiyyəti.** İmam Sadiq (ə) buyurmuşdur: "Bizim qiyam edənimiz (Qaimimiz) qiyam etdikdə bütün yer üzündə Allahın birliyinə və Peyğəmbərin (s) nübüvvətinə şəhadət veriləcəkdir" .

**2-İlahi hökmlərin tam icrası.** İmam Kazim (ə) "əl-Hədid" surəsinin 17-ci ayəsinin təfsirində buyurmuşdur: "Allahın, yeri öldürdükdən sonra yenidən diriltməsində məqsəd, onu yağışla diriltməsi deyildir. Allah bəzi insanları göndərərək, yeri ədalət və ilahi hökmlərin icrasıyla diriləcəkdir."

**3-Quran təlimlərinin dirçəldilməsi.** Həzrət Əli (ə) İmam Məhdinin (əc.) qiyamının nəticələri barədə buyurmuşdur:

"İnsanlar Quranı öz istədiklərinə uyğun şəkildə izah etdikdə, o, onların fikir və nəzərlərini Qurana tərəf yönəldəcək və Quran həqiqətlərinə xidmət göstərməyə sövq edəcəkdir. O, unudulmuş Quran və sünnəni və onun həmişəyaşar təlimlərini necə dirçəldəcəyini sizə göstərəcəkdir".

**4-Zülmün məhv və ədalətin bərqərar edilməsi.** Peyğəmbər (s) buyurmuşdur: "Məhdi (əc.) mənim övladlarımdandır. O, qeybə çəkiləcək, zühur etdikdə isə, zülmlə dolmuş yer üzünü ədalətə qərq edəcəkdir" .

**5-İslamın yenidən başlanması.** İmam Baqir (ə) buyurmuşdur: "Peyğəmbərin (s) etdiyi işləri o da edəcəkdir. Peyğəmbər (s) cahiliyyət adətlərini sındırdığı kimi, o da qabaqkı qanunları ləğv edəcəkdir. O, İslamı əvvəldən başlayacaqdır".

**6-İnsanlar arasında elmin kamilləşməsi.** İmam Sadiq (ə) buyurmuşdur: "Elm 27 hərfdən ibarətdir. Peyğəmbərlərin gətirdiyi bütün təlimlər onun yalnız 2 hərfidir. Bizim Qaimimiz qiyam etdikdə, onun digər 25 hərfini də aşkara çıxaracaq və insanlar arasında yayacaqdır".

**7-Əqli inkişaf.** İmam Baqir (ə) buyurmuşdur: "Bizim Qaimimiz qiyam etdikdə, Allah, bəndələrin ağıllarını toplayacaq, sahmana salacaq, fikir və düşüncələrini kamilləşdirəcəkdir" .

**8-Təhlükəsizlik.** İdris peyğəmbərin (ə) səhifələrindən belə nəql olunmuşdur: "Məhəmməd ailəsinin Qaimi (əc.) zühur etdiyi zaman yer üzünə təhlükəsizlik bəxş edəcək, insanların bir-birinə zərər yetirmələri və bir-birindən qorxmaları aradan qalxacaqdır". Həmçinin, İmam Əli (ə) buyurmuşdur: "O zaman bir qadın İraqdan Şama qədər piyada gedər; halbuki, heç kim və heç bir şey onu qorxutmaz".

**9-İnsanlar arasında birlik və məhəbbət.** Əmirəl-möminin Əli (ə) buyurmuşdur: لو قد قام قائمنا...لذهبت الشحناء من قلوب العباد

"Bizim Qaimimiz (əc.) qiyam etdikdə kin və düşmənliklər bəndələrin qəlbindən çıxacaqdır" .

**10-Yer üzünün günahdan paklanması.** İmam Sadiq (ə) həzrət Məhdinin (əc.) zühurundan sonrakı insanlar haqqında buyurmuşdur:

ولا يعصون الله عز وجل فى أرضه "İnsanlar yerdə Allaha itaətsizlik göstərməzlər" .

SON SÖZ

İmam Məhdiylə (əc.) tanışlıq öhdəlikli və məsuliyyətli bir tanışlıqdır.

Vilayət ipindən tutmaq, təqvalı olub, İmam Məhdiyə (əc.) qarşı durmaqdan çəkinmək, zühura zəmin yaratmaq üçün səy və mübarizə, o həzrətə məhəbbət və kömək göstərmək yo-lunda mətanət, zühurun yaxınlaşması və o həzrətin müqəddəs məqsədlərinin həyata keçməsi üçün davamlı dua etmək, heç bir müntəzir tərəfdarın unutmayacağı vəzifə və məsuliyyətlərdəndir. İmam Məhdini (əc.), onun məqsəd və amallarını tanıdıqdan sonra sakit oturmaq, nəinki təkcə o həzrətin, hətta Allah-taalanın da istədiyi işlərə qarşı laqeydlik göstərmək, əsla mümkün deyil.

XƏTMİ-KƏLAM

İmam Məhdidən (əc.), kiçik qeyb dövründə yazdığı və tərəfdarlarının suallarına cavabdan ibarət olan məktublardan savayı, bəzi xüsusi dua və ziyarətlər nəql olunmuşdur. Bunlar-la məşğul olmağın möminlərin mənəvi yüksəlişi və hacətlərin qəbul olunmasında xüsusi təsiri vardır. Bu qısa yazının sonun-da həmin duaların "Həzrət Məhdiyə (əc.) istiğasə" adlı birisini qeyd edirik.

Mərhum Seyid Əli Xan özünün "əl-Kəlimüt-təyyib" kitabında buyurmuşdur: Bu, həzrət Sahibəz-zamana (əc.) istiğasə və ondan kömək diləməkdir. Harada olsan, bir həmd və istədiyin daha bir surə ilə iki rəkət namaz qıl və sonra açıq səma altında üzü qibləyə dayan və de: Sәlamullahil-kamilut-tamm, əş-şamilul-`amm, və sələvatuhud-daimətu və bərəkatuhul-qaimətut-tammətu `əla hüccətillahi və vəliyyihi fi ərzihi və biladih, və xəlifətihi `əla xəlqihi və `ibadih, və sulalətin-nubuvvəti və bəqiyyətil-`itrəti vəs-səfvəti Sahibizzəman, və muzhiril-iman, və muləqqini əhkamil-Quran, və mutəhhiril-ərzi və naşiril-`ədl, fit-tuli vəl-`ərz, vəl-huccətil-Qaimil-Məhdiyyil-İmamil-Muntəzəril-Mərziyy, vəbnil-əimmətit-tahirin, əl-vəsiyyibnil-əusiyail-mərziyyin, əl-hadil-mə`sumibnil-əimmətil-hudatil-mə`sumin. Əssəlamu `ələykə ya Muizzəl-mominınəl-mustəz`əfin! Əssəlamu `ələykə ya Muzilləl-kafirinəl-mutəkəbbirinəz-zalimin! Əssəlamu `ələykə ya məulayə ya Sahibəzzəman! Əssəlamu `ələykə yəbnə Rəsulillah! Əssəlamu `ələykə yəbnə Əmiril-mominin! Əssəlamu `ələykə yəbnə Fatimətəz-Zəhra, səyyidəti nisail-`aləmin! Əssəlamu `ələykə yəbnəl-əimmətil-hucəcil-mə`sumin, vəl-imami `ələlxəlqi əcməin! Əssəlamu `ələykə ya məulayə, sәlamə muxlisil-ləkə fil-vilayəh. Əşhədu ənnəkəl-imamul-Məhdiyyu qəulən və fi`lən, və əntəlləzi təmləul-ərzə qistən və `ədlən bə`də ma muliət zulmən və cəura. Fə`əccələllahu fərəcək, və səhhələ məxrəcək, və qərrəbə zəmanək və kəssərə ənsarəkə və ə`vanək, və əncəzə ləkə ma və`ədək, fəhuvə əsdəqul-qailin: "Və nuridu ən-nəmunnə `ələlləzinəstuz`ifu fil-ərzi və nəc`ələhum əimmətən və nəc`ələhumul-varisin". Ya məulayə, ya Sahibəz-zəman, yəbnə Rəsulillah, hacəti... (burada öz hacətini dilə gətir). Fəşfə` li fi nəcahiha fəqət-təvəccəhtu iləykə bihacəti li`ilmi ənnə ləkə `indəllahi şəfa`ətən məqbuləh, və məqamən məhmuda. Fəbihəqqi mənixtəssəkum biəmrihi vərtəzakum lisirrih, və biş-şənilləzi ləkum `indəllahi bəynəkum və bəynəh, səlilləhə tə`ala fi nuchi təlibəti və icabəti də`vəti və kəşfi kurbəti. Bun-dan sonra hacətini istə, inşallah qəbul olar.

Mərhum müqəddəs Qumi "Məfatihul-cinan" kitabında yazır: "Yaxşı olar ki, bu namazın birinci rəkətində "Həmd" surəsindən sonra "Fəth", ikinci rəkətində isə "Nəsr" surəsi oxunsun".




MÜQƏDDƏS CƏMKƏRAN MƏSCİDİ İLƏ TANIŞLIQ

Müqəddəs Cəmkəran məscidi həzrət İmam Məhdinin (əc.) xüsusi nəzəri sayəsində, onun əmrilə tikilmişdir. Bu məscidin tarixçəsi belədir:

Şeyx Həsən ibn Müslə Cəmkərani deyir: "Ramazan ayının 17-si çərşənbə axşamı idi. Öz evimdə idim. Birdən bir dəstə adam qapımıza gəlib dedilər: "Həzrət Məhdi (əc.) səni istəyir". Ayağa qalxıb, o cənabın hüzuruna getdim. Xızır peyğəmbər (ə) də onun yanında idi. İmam, müqəddəs Cəmkəran məscidinin tikilməsini əmr edib, buyurdu: "Camaata deyin ki, bu məkana rəğbət göstərib, hörmətlə yanaşsınlar və onda dörd rəkət namaz qılsınlar. Bu iki namazı (iki ikirəkətli namazı) qılan şəxs Kəbədə namaz qılmış kimidir". Məscidin təhiyyət namazı: Bu namaz iki rəkətdir. Hər rəkətdə "Həmd" surəsindən sonra 7 dəfə "Qul huvəllah" surəsi deyilir. Rüku-nun ("Subhanə rəbiyyəl-`əzimi və bihəmdih") və səcdələrin ("Subhanə rəbiyyəl-ə`la və bihəmdih") zikrləri də 7 dəfə təkrar olunmalıdır. Sahibəz-zaman (əc.) namazı: Bu namaz da iki rəkətdir. Hər rəkətdə "Həmd" surəsini oxuyarkən, "İyyakə nə`budu və iyyakə nəstə`in" ayəsini 100 dəfə təkrar edib, namazı davam etdirmək lazımdır. Bu namazda da "Qul huvəllah" surəsi, habelə rüku və səcdələrin zikrləri 7 dəfə deyilir. Namazı qurtardıqdan sonra bir dəfə "La ilahə illəllah" deyib, həzrət Fatimeyi-Zəhra (ə) təsbehini zikr etmək, daha sonra isə səcdəyə gedib 100 dəfə salavat demək lazımdır.

**GÖRKƏMLİ MÜASİR MÜCTƏHİDLƏRİN CƏMKƏRAN MƏSCİDİ BARƏSİNDƏ FİKİRLƏRİ**

Ayətullah Bürucerdi: "Əgər imkanım olsaydı, gündəlik vacib namazlarımı müqəddəs Cəmkəran məscidində qılardım".

Ayətullah Mər`əşi Nəcəfi: "Müqəddəs Cəmkəran məscidində çoxlu kəramətlər müşahidə etmiş və qırx çərşənbə axşamı gecəsini sübhə qədər orada qalmağa müvəffəq olmuşam".

Ayətullah Xameneyi: "Müqəddəs Cəmkəran məscidi, bəhrələnməli olduğumuz tükənməz xəzinədir".

Ayətullah Bəhcət: "Müqəddəs Cəmkəran məscidi kimi məscidlər xüsusi tanıtdırmaya ehtiyaclı deyillər. Onların ən yaxşı tanıtdıranı özləridirlər".

Ayətullah Safi Gülpayiqani: "Ümidvarıq, nə qədər ki, öm-rümüz var, Allah-taala bizi bu məscidə getmək şərəfindən məhrum etməz".

Ayətullah Məkarim Şirazi: "Bu məscidin ilahi fəzasında olanlar qəribə ruhani hiss və qeyri-adi mənəvi cazibə duyurlar".

Ayətullah Fazil Lənkərani: "Tələbə olarkən Cəmkəran məscidinə çox getmiş, orada çoxlu kəramətlər görmüş və eşitmişəm".

Ustad Ənsari

# Kərbəla ziyarəti





*Hicrətin altıncı ilində Əli (ə) Siffeyn müharibəsinə gedərkən bir az Kərbəla torpağı götürüb iylədi və dedi: "Xoş olsun bu torpağın halına ki, bəziləri bu torpaqdan sorğu-sualsız behiştə gedəcəklər!"*

*Kərbəla torpağı hələ qədim zamanlardan, hətta İsadan (ə) da qabaq yaşayış məskəni olmuşdur. Kərbəla kəndlər və abad məntəqələrin mərkəzində yerləşmiş, həmin məntəqədə Nəvaris, Qaziriyyə, Neynəva adında, həmçinin Şam şəhəri ilə Fərat çayı arasında bir neçə kənd olmuşdur.*

*Kərbəla torpağının bir sıra başqa adları da olmuşdur: Şatil-Fərat, Niyrə, Qudsiyyə, Ərzullahil-muxtar (Allahın seçdiyi yer), Hir və Tif.*

"Kərbəla" sözünün mənşəyinə gəlincə Qazi Nurullah Dustəri və bəzi digər alimlər bu sözün "Kərbələh"dən alındığını qeyd edərək üç məna sadalayıblar:

Süstlük. Çünki, Kərbəla torpağı sabit iqlim şəraiti olan bir yer olub;

Buğda və digər dənli bitkiləri daş və digər artıq şeylərdən təmizləmək. Kərbəla torpağı da daşsız-kəsəksizdir;

Həmin torpaqda çox bitən bir otun adıdır.

Bəziləri bu kəlmənin "kərb" və "bəla" sözlərindən təşkil olunduğunu ehtimal edir. Bu iki sözün də mənası qəm-qüssə deməkdir.

İmam Hüseyn (ə) sual etdi ki, bu torpağın adı nədir? Dedilər: "Kərbəla". Həzrət (ə) buyurdu: "Allahım! Bəla və qəm-qüssədən sənə pənah aparıram!"

Deyirlər ki, həzrət Nuh (ə), Musa (ə), İsa (ə), İbrahim (ə), İsmail (ə), həmçinin Adəm (ə) də yerə endikdən sonra Kərbəladan keçiblər. Onlar hər zaman bu torpaqdan keçərkən xeyli çətinliklə üzləşmişlər. Səbəbini soruşanda cavab olaraq eşidərdilər ki, sonuncu Peyğəmbərin (s) nəvəsi bu torpaqda qətlə yetiriləcək.

Kərbəla torpağı mənbəyini Fərat çayından götürən Hüseyniyyə çayının qərb tərəfində yerləşir. İraqın ən məhsuldar torpağı olmaqla, hər növ əkinçilik üçün əlverişlidir.

### İmam Hüseyn (ə) ziyarətgahının tarixi

Şeyx Tusinin "Əmali" kitabında yazdığı rəvayətlərdən anlaşılır ki, Əməvilərin hakimiyyəti zamanında imam Hüseynin (ə) qəbrinin üzərində Muxtar və onun dostlarının düzəltdikləri bir sıra qəbirüstü nişanələr mövcud olmuşdur. Bu nişanələr hicrətin 64-cü ilindən 72-ci ilinə qədər qorunmuşdur.

İmam Hüseynin ziyarətinin keyfiyyətini bəyan edən hədislərdən anlaşılır ki, Bəni-Üməyyə hakimiyyətinin son dövrlərində o həzrətin (ə) qəbrinin üstündə bəzi tikililər və məscid mövcud

olmuşdur. Abbasi xəlifələrinin, xüsusən də, birinci Abbasi xəlifəsi olan Səffahın zamanında vəziyyət bir az da yaxşılaşdı, təmir işləri həyata keçirildi. Baxmayaraq ki, həm Bəni-üməyənin, həm də Abbasilərin dövründə Həzrətin qəbrinin dağıdılması halları da baş vermişdi. Məsələn, Harun ər-Rəşid ziyarətə gələnlərə əziyyət verərdi. Hətta yadigar kimi saxlanılmış Sidr ağacını kəsdirib İmamın (ə) qəbrinin yerini şumlatdırdı, ətrafdakı tikililəri dağıtdı.

236-cı hicri ilində Mütəvəkkil Abbasi Həzrətin qəbrinin yerini şumladı, oraya su buraxdırdı, amma möcüzə baş verərək su qəbri dağıtmadan kənardan axdı. Həmin miqdar, yəni suyun kənara çəkildiyi hissə Hüseynin məzarı hesab olunur ki, namaz qılan həmin yerdə namazını qəsr və ya tamam qılmaqda ixtiyar sahibidir. Amma bəziləri bu hökmü oradakı məscidə, bəziləri də bütün Kərbəlaya şamil edirlər. Qəmqamın tarixi və Şeyx Tusinin "Əmali" kitabında qeyd edilir ki, Mütəvəkkil Abbasi öz hakimiyyəti zamanı həmin vəhşi əməlini 17 dəfə təkrarlamışdır. 247-ci ildə həccə gedən Əbdullah ibn Rabiyə deyir: "Mən həcdən qayıdarkən ziyarət məqsədilə Kərbəlaya getdim, amma imam Hüseynin (ə) qəbri-şərifindən heç bir əsər-əlamət görmədim. Oranı tamamilə su basmışdı. Öz əsamla nə qədər axtarsam da qəbri tapa bilmədim".

Mütəvəkkil Abbasi hicri təqvimilə 247-ci ilin şəvval ayında oğlu Müntəsir tərəfindən Cəhənnəmə vasil edildi. Müntəsir Əli (ə) tərəfdarları ilə yaxşı davranırdı. Ondan sonra hakimiyyətə Əzudud-dövlət Deyləmi gəldi və o, da ehtiramla davranaraq qəbirlərin əvvəlki vəziyyətini bərpa etdi. 371-ci ildə qəbirlərin üzərində gümbəzlər tikdirdi, fil sümüyündən zərih düzəltdirib imam Hüseynin (ə) qəbrinin üzərinə qoydurdu.

767-ci hicri ilində poladdan düzəldilmiş çərbənd qəbrin üzərinə qoyuldu. Padşahların zamanında bu çərbəndlər dəyişdirilib xəzinələrdə saxlanılırdı. Şah İsmayıl Səfəvinin zamanında onun əmrilə həmin çərbəndin oxşarları düzəldilərək İmam Musa Kazım (ə) və İmam Muhəmməd Təqinin (ə) qəbirlərinin də üzərinə qoyuldu.

Hicrətin 926 və 932-ci illəri arasında altı il müddətinə çərbəndlər düzəltdirildi. Birini imam Əlinin (ə), digərini isə imam Hüseynin (ə) qəbrinin üzərinə qoydular. Əvvəlki çərbəndlərin uzunluğu 4 m, eni 3,1 m olmuşdur. Həmin çərbəndlər bu heyrətamiz işdə böyük zəhmətlər çəkmiş usta Səni Xatəmin əl işləri olmuşdur.

Hicrətin 914-cü ilində Şah İsmayıl Səfəvi Bağdadı fəth edəndən sonra Kərbəlanı ziyarət etdi. O, imam Hüseynin (ə) zərihinin ətrafına qızıldan bəzəklər vurdurub hərəmə 12 qızıl qəndil hədiyyə etdi. Həmçinin gümüşdən düzəldilmiş bir zərihi də müqəddəs ziyarətgaha bağışladı. 932-ci ildə həmin zərihin düzəldilməsi başa çatandan sonra Şah İsmayıl bir gecə Həzrətin hərəmində qalıb, oradan Hiləyə, daha sonra isə Nəcəfə getdi.

Qacarilərin zamanında imam Hüseynin (ə) günbəzi üç dəfə qızıl suyuna çəkilmişdir. Birinci dəfə hicrətin 1207-ci ilində Ağa Məhəmməd şah Qacar tərəfindən, ikinci və üçüncü dəfə isə Fətəli şah Qacar tərəfindən. Fətəli şah 1214-cü hicri ilində gümüşdən bir zərihi də hərəmə hədiyyə etdi və o zərih indiyə qədər qalmaqdadır. Baxmayaraq ki, vəhhabilər ona ciddi zərər yetirmişlər. Belə ki, miladi 1801-ci ildə vəhhabilər Kərbəlaya hücum edib 3000-dən çox insanı qətlə yetirdilər. İmam Hüseynin (ə) sənduqəsini dağıdıb türbədəki qiymətli əşya və hədiyyələri qarət etdilər.

Müqəddəs Kərbəla torpağına edilmiş bu vəhşi hücumlar, dağıntı və qarətdən sonra Fətəli şah Qacar Şeyx Cəfər Kaşiful-Ğitanın köməyilə çox böyük təmir işləri həyata keçirtdi. Ondan sonra Məhəmməd Əli Mirzə də bəzi təmirlər apardı. Daha sonra Nəsrəddin şah Qacar hicrətin 1273-cü ilində hərəmdə zərgərlik işini həyata keçirtdi. Hicrətin 1355-ci ilində Kərbəlanı ziyarət edən Sultan Tahir Seyfəddin İsmaili əmr etdi ki, imam (ə) Hüseynin zərihini xalis gümüşdən hazırlasınlar. Bu zərihin düzəldilməsi 1358-ci ildə başa çatdı və qəbrin üzərinə qoyuldu.

### İmam Hüseynin (ə) ziyarətinin fəziləti

Hədislərdə imam Hüseyni (ə) ziyarət etməyin günahların bağışlanmasına səbəb olduğu qeyd olunur. Bəzi hədislərdə bu ziyarət qul azad etməyə, həcc, ümrə və cihada bərabər tutulmuşdur.

# QANUN VƏ ALLAHA İMAN

İnsanın kamala çatıb həyatda xoşbəxt olması yalnız ictimai yaşayış sayəsində əldə olunur. Çoxşaxəli həyati əməllər var ki, insan onların hamısını həyata keçirtmək istəyir. Bu zaman onun başqaları ilə həmkarlığa ehtiyacı var. Bu iş ictimai insanı qanun-qaydaya möhtac edir ki, insanın hüququnun qoruyucusu olsun və hər kəsin cəmiyyətdə olan bəhrəsini təyin etsin. Yəni insanlar öz qüvvələrinə görə işləsinlər, sonra isə işlərin nəticələri mübadilə olunsun. Belə ki, hər kəs öz işinin dəyəri qədər və ictimai etibarı miqdarında başqalarının işindən bəhrə aparsın, güclülük və zəiflik zülmə səbəb olmasın.



Bu qayda-qanunlar o vaxt təsirli ola bilər ki, insanları cinayət törətməkdən çəkindirən və ictimai normalara riayət etməyə həvəsləndirən bir sıra qanunlar olsun və bu qanunların həyata keçirilməsi üçün hakim qüvvə ədalət, insaf və düzgünlüklə cəmiyyətə rəhbərlik etsin.

Bu arzu o zaman həyata keçər ki, icra orqanının həm cinayətdən xəbəri olsun, həm də cinayətkarı cəzalandırmağa qüdrəti çatsın. Cinayətdən heç kimin xəbəri olmayanda (necə ki, belə cinayətlər az deyil) cinayət törətmək üçün maneçilik olmayacaq. Eləcə də hakim qüvvənin cinayətkarı cəzalandırmaq üçün kifayət qədər qüvvəsi çatmasa, yaxud səhlənkarlıq və süstlük etsə, qanun pozuntusu və başqalarının hüququna təcavüz etmək yayılacaq. Çünki, dəfələrlə deyildiyi kimi, insan mənfəət axtarandır və hətta başqaları zərərə düşsə də, onlardan öz xeyrinə istifadə etməyə çalışır.

Əsas müsibət o zaman yaranır ki, bütün qüdrətlər icra qüvvəsində və rəhbərlikdə toplansın, o, bu misilsiz qüdrətə söykənərək başqalarını zəif saysın və heç kim də onun iradəsini tənzimləyən qüvvə qalmasın. Nəticədə isə, onun istəyi camaatın bütün işlərinə mütləq halda qələbə çalsın.

Tarixdə zalım rəhbərlər haqsız yerə xalqı əsarətdə saxlayaraq zorakılıq və zülmlə məşğul olublar. İndi də belə hakimləri çox görmək olar.

Beləliklə, ədalətli qanunlar təyin olunsa da və cinayətlər üçün ağır cəzalar nəzərdə tutulsa da, insanı cinayətdən çəkindirən ən güclü vasitə gözəl və yüksək əxlaqdır.

Bəzi inkişaf etmiş ölkələrdə nizamı və ədaləti gördükdə insan aldanıb güman etməməlidir ki, qanunlar və hüquqi normalar ədalətin yaranmasına səbəb olubdur. Çünki, bu millətlərin



düşüncə forması başqaları ilə fərqlidir. Onlar yaşadıqları cəmiyyəti fikirləşib öz xeyir və zərərlərini cəmiyyətin xeyir və zərərində bilirlər. Amma zəif millətlərdən istifadə edib geridə qalmış ölkələri istismar edirlər. Zahirdə isə ədalətdən və insafdan dəm vururlar. Onlar, keçmiş zalım hakimlərin insanlara qarşı etdiyi hərəkətləri əllərinin altında olan millətlərə qarşı edirlər. Bu fərqlə ki, bu gün şəxsin yerinə cəmiyyəti qoyurlar və sözlər öz mənasını dəyişib əks mənada işlənilir. Azadlıq, şərafət və fəziləti həqiqətdə köləliyə, zülmə, zillətə və pisliyə deyirlər.

Qanun pozuntularının tam şəkildə qarşısını almaq yalnız cəmiyyəti yüksək insani əxlaq əsasında tərbiyə etməklə mümkün ola bilər. Şübhəsiz ki, insanın səadətini təmin edib onu yaxşı işlər görməyə sövq edən əxlaq dedikdə yalnız tovhidə bağlı olan əxlaq nəzərdə tutulur. Yəni şəxs inansın ki, insanın yaşadığı bu aləmin yaradanı var, O həmişə olub və olacaq. Onun elmindən, hətta, ən kiçik şeylər də gizli qala bilməz. Onun qüdrəti heç bir şeyin qarşısında məğlub ola bilməz. Bütün bu varlıqlara ehtiyacı olmadığı halda onları ən kamil nizamda xəlq edibdir. Nəhayət hamısını özünə tərəf qaytaracaq, yaxşı əməl sahiblərinə yaxşı mükafat və pis iş görənlərə cəza verəcək. Sonra onlar nemət, ya əzabda əbədi qalacaqlar.

Məlumdur ki, əgər əxlaq belə əqidəyə bağlı olsa insan öz işində Allahın razılığından başqa bir şey fikirləşməyəcək və təqva onu günah etməkdən çəkindirəcək. Əgər əxlaq bu cür əqidəyə bağlı olmasa, insanın dünyanın müvəqqəti ləzzətlərindən bəhrələnməsindən başqa bir hədəfi olmayacaq.

Əlbəttə, belə bir şəxsin cəmiyyətin məhv olub aradan getməməsi üçün yaxud başqalarının onu tərifləməsi və ölümündən sonra adının qızıl sətirlərlə tarixin səhifələrində yazılması üçün bir sıra işlərdə öz əməllərinə məhdudiyyət qoyması mümkündür. Ancaq aydındır ki, xalqın onu tərifləməsi təkcə onların xəbərdar olduqları işlərdə mümkündür. Odur ki, belə bir şəxsin gizlində və camaatın gözündən uzaqda yaxşı işlər görməsini və pis işlərdən çəkinməsini iddia etmək olmaz.



Hökumətin müdafiəsi və vətən yolunda fədakarlıq göstərmək üçün insanları onların ölümdən sonra yaxşı adlarla xatırlanması ilə həvəsləndirmək isə ölümdən sonrakı həyata etiqadı olmayan bir şəxs üçün xurafatdan başqa bir şey ola bilməz. Çünki, insan məhv olduqdan sonra camaatın onu tərifləməsinin və yaxşı adla xatırlamasının onun üçün heç bir xeyri yoxdur. Hansı ağıllı insan başqası üçün öz həyat və səadətinə göz yummağa hazır olar? Bir halda ki, bunun ona heç bir faydası olmayacaq.

Deməli, bütün bu işlərin Allaha imanla və tovhidlə müqayisədə heç bir dəyəri yoxdur və günahların və qanun pozuntusunun qarşısını almaqda onun yerini verə bilməz.

Əllamə Seyyid Məhəmməd Hüseyn Təbatəbai

# QURANLA DƏRMAN

İmam Sadiq (ə) buyurdu: Hər cümə axşamı Vaqiə surəsini oxuyan kəsi Allah sevər və həmçinin onun məhəbbətinə görə xalqında yaşadığı müddətdə bədbəxtlik yoxsulluq görməz, dünyada ona bir ziyan dəyməz.

İmam Sadiq (ə) buyurdu: Hər kəsin Behiştə və onun necəliyini bilməyə marağı vardırsa, Vaqiə surəsini oxusun. Və hər bir kəsin Cəhənnəm odunun necəliyini bilmək istəyirsə, Loğman surəsini oxumağı gərəkdir.

İmam Məhəmməd Baqir (ə) buyurdu: Gecə yatmazdan əvvəl Vaqiə surəsini oxuyan kəs, çöhrəsi on dörd gecəlik ay kimi nur saçan halda Allahı dərk edər.

Allahın Rəsulu (s) buyurdu: Vaqiə surəsini oxuyan bir kəs qəflət əhlindən olmaz. Məsruqdan rəvayət olunub ki, o belə deyir: Keçmişdəkilərdən, Behişt əhlindən, Cəhənnəm əhlindən, dünya və axirətdən bir xəbər öyrənmək istəyən kəs Vaqiə surəsini oxusun. Rəvayət olunub ki, Osman ibn Əfan, Əbdullah ibn Məsudun halını yoxlamaq üçün onun yanına gəldi. Lakin Əbdullah ibn Məsud həmin xəstəliklə dünyadan köçdü. Ölümündən qabaq Osman ona deyir: Nədən şikayətin var? O (Əbdullah dedi: Günahlarımdan. Osman dedi: Nə istəyirsən? Əbdullah dedi: Həkim məni xəstələndirdi. Osman dedi: Beytül-maldan payının verilməsini əmr verməyimmi? Əbdullah dedi: Ehtiyaclı olduğum gün məni ondan məhrum etdin və mənim ona bu gün ehtiyacım olmayan halda onu mənə vermək istəyirsən. Osman dedi: Onda qoy qızlarına qalsın. Əbdullah dedi: Onların da mal və bəxşeşə ehtiyacı yoxdur. Çünki mən Vaqiə surəsini daim (həmişə) oxumağı onlara göstəriş vermişəm və özüm Peyğəmbərdən (s) eşitmişəm ki, o Həzrət buyurdu: Vaqiə surəsini hər gecə oxuyan kəs heç vaxt fəqir və ehtiyaclı (heç bir dərdi) olmaz.

## “Vaqiə” surəsi


بسم الله الرحمن الرحيم
إذا وقعت الواقعة ﴿١﴾ ليس لوقعتها كاذبة ﴿٢﴾ خافضة رافعة ﴿٣﴾
إذا رجت الأرض رجا ﴿٤﴾ وبست الجبال بسا ﴿٥﴾ فكانت هباء منبثا ﴿٦﴾
وكنتم أزواجا ثلاثة ﴿٧﴾ فأصحاب الميمنة ما أصحاب الميمنة ﴿٨﴾
وأصحاب المشأمة ما أصحاب المشأمة ﴿٩﴾ والسابقون السابقون ﴿١٠﴾
أولئك المقربون ﴿١١﴾ في جنات النعيم ﴿١٢﴾ ثلة من الأولين ﴿١٣﴾ وقليل
من الآخرين ﴿١٤﴾ على سرر موضونة ﴿١٥﴾ متكئين عليها متقابلين ﴿١٦﴾

**Təcrübə olunmuş xətm.**

Qırx gecə və hər gecə Vaqiə surəsini bir dəfə, Muzzəmmil surəsini bir dəfə, Ləyl surəsini bir dəfə, İnşirah surəsini bir dəfə oxusun. Bu surələri oxuyandan sonra aşağıdakı duanı oxusun. Bu xətm borcu ödəmək və hacətin tez qəbul olunması üçün təcrübə olunub.

***“Ya rəziqəs-sailin. Ya rahiməl-məsakin. Ya vəliyyəl-mömınin. Ya ğiyasəl mustəğisin. Ya ərhəmər-rahimin. Səlli əla Muhəmmədin və ali Muhəmməd. Vəkfini həlalikə ən həramik. Və bitaətikə ən məsiyətik. Vəbi fəzlikə əmmən sivakə ya ilahəl aləmin. Və səllahu əla Muhəmmədin və alihil əcməin.”***

Aşağıda qeyd etdiyimiz xətm, ruzinin bol və məişətin yaxşılaşmasında (ömrünüzdə bir dəfə hökmən bu xətmi yerinə yetirin çox böyük təsiri olacaqdır.) (çox təcrübə olunub) Şənbə gecəsindən başlayıb və hər gecə üç dəfə oxusun, lakin istisna olaraq cümə axşamı səkkiz dəfə oxusun. Bu dəfə bu surəni oxumazdan əvvəl aşağıdakı duanı oxusun.

***“Allahummərzuqna rəzqən həlalən təyyibən min ğəyrikə. İstəcib dəəvətuna min ğəyri rəddi və əuzu minəl fəzihətəynil fəqru vəddəyni. Vədfi ənni hazəyni bihəqqil imaməynil həsən vəl hüsəyni ələyhiməssəlam. Birəhmətikə ya ərhəmər-rahimin.”***

Gündəlik namazlarda, şam namazından sonra Vaqiə surəsini, işa namazından sonra Təbarəkəl-ləzi surəsini bir dəfə, sübh namazından sonra Yasin surəsini, zöhr namazından sonra Əmmə yətəsaəlunu (Nəbə) surəsini, əsr namazından sonra inna fətəhna (Fəth) surəsini, oxusa, hacəti qəbul olunar.

ا أَيُّهَا الَّذِينَ آمَنُواْ إِذَا قُمْتُمْ إِلَى الصَّلاةِ فاغْسِلُواْ
وُجُوهَكُمْ وَأَيْدِيَكُمْ إِلَى الْمَرَافِقِ وَامْسَحُواْ
بِرُؤُوسِكُمْ وَأَرْجُلَكُمْ إِلَى الْكَعْبَينِ وَإِن
كُنتُمْ جُنُبًا فَاطَّهَّرُواْ وَإِن كُنتُم مَّرْضَى أَوْ عَلَى
سَفَرٍ أَوْ جَاء أَحَدٌ مَّنكُم مِّنَ الْغَائِطِ أَوْ لاَمَسْتُمُ
النِّسَاء فَلَمْ تَجِدُواْ مَاء فَتَيَمَّمُواْ صَعِيدًا طَيِّبًا
فَامْسَحُواْ بِوُجُوهِكُمْ وَأَيْدِيكُم مِّنْهُ مَا يُرِيدُ اللّهُ
لِيَجْعَلَ عَلَيْكُم مِّنْ حَرَجٍ وَلَـكِن يُرِيدُ لِيُطَهَّرَكُمْ
وَلِيُتِمَّ نِعْمَتَهُ عَلَيْكُمْ لَعَلَّكُمْ تَشْكُرُونَ

# DƏSTƏMAZ AYƏSİNİN TƏFSİRİ



***TƏRCÜMƏ:***

***«Ey iman gətirənlər, namaza durarkən (dəstəmazınız olmayanda) üzlərinizi və dirsəklərinizə qədər əllərinizi yuyun və başınıza və iki ayaqlarınızın üzərinə hər iki ayağınızın üstündəki qabarıq yerə kimi məsh edin. Əgər cənabətli olsanız yuyunun (qüsl edin). Əgər xəstə və ya səfərdə ikən sizlərdən biri ayaqyolundan gəlmiş, yaxud qadınlarla yaxınlıq etmiş olsa və su tapmasanız, onda pak torpaq axtarın. (Hər iki əlinizin içini ona vurduqdan sonra) həmin torpaqdan üzünüzə və əllərinizə çəkin (təyəmmüm edin). Allah əsla sizə çətinlik yaratmaq istəmir, lakin sizi paklaşdırmaq və Öz nemətini sizə tamamlamaq istəyir (ki,) bəlkə şükr edəsiniz.»***

***TƏFSİR:***

Keçən ayələrdə cismi pakizəlik və maddi nemətlər barəsində müxtəlif mövzular irəli çəkildi. Bu ayədə isə insan ruhunun paklığına səbəb olan məsələlər qeyd edilir, ruhun səfalı və pak olmasına səbəb olan dəstəmaz, qüsl və təyəmmümün hökmlərindən böyük bir qismi bəyan edilir. Əvvəlcə imanlı şəxslərə xitab edilərək dəstəmazın hökmləri aşağıdakı ardıcıllıqla bəyan edilir: Ey iman gətirənlər! Namaz üçün qalxanda üzünüzü və əllərinizi biləyə qədər yuyun, başınızın, eləcə də ayağınızın üstünə – ayağın üstündəki çıxıntıya qədər məsh çəkin.



Buna əsasən, ayədə qolun yalnız yuyulacaq miqdarı qeyd olunur, amma onun necə yuyulması Əhli-beyt (ə) vasitəsi ilə bizə gəlib çatan Peyğəmbər (s) sünnəsində bəyan olunmuşdur. Bu da qolun dirsəkdən başlayaraq barmaqların ucuna tərəf yuyulmasıdır.

Sonra qüslün hökmü izah edilir və buyurulur: Əgər cünub olsanız, qüsl edin. Aydındır ki, «fəttəhhəru» cümləsində məqsəd bədənin hər yerinin yuyulmasıdır. «Nisa» surəsinin 43-cü ayəsində də qeyd olunduğu kimi, «cünub» uzaqlaşan deməkdir. Cənabətli şəxsin «cünub» adlandırılmasının səbəbi həmin halda namazdan və paklıqla şərtlənən digər işlərdən çəkinməli olmasıdır.

Yuxarıdakı ayədə «əgər cünub olsanız, namaz üçün qüsl edin» deyilməsindən məlum olur ki, cənabət qüslü dəstəmazın əvəzinə də kifayət edir.

Daha sonra təyəmmümün hökmləri belə bəyan edilir: Əgər yuxudan qalxıb namaz qılmaq istəsəniz, xəstə, yaxud müsafir olsanız, ya sizin hər hansı biriniz ayaq yolundan qayıtsa, yaxud qadınlarınızla yaxınlıq etmisinizsə, bütün bu hallarda su tapa bilməyirsinizsə, pak torpaqla təyəmmüm edin.

Təyəmmümün alınma qaydası icmali şəkildə belə bəyan edilir: Əllərinizi pak torpağa vurun, əllərinizdə qalan torpaqla üz və əllərinizə məsh edin.

Ayənin axırında bu göstərişlərin heç birində müsəlmanlar üçün çətinlik qoyulmadığını, onların hamısının nəzərə çarpacaq dərəcədə məsləhət xatirinə bir qanun olduğunu bəyan etmək üçün buyurulur: Allah sizin zəhmətə, məşəqqətə düşməyinizi istəmir, əksinə, Onun nemətlərinə şükr edəsiniz deyə, sizi pak etmək və Öz nemətlərini sizə tamamlamaq istəyir. Həqiqətdə şərif ayə bir daha bu həqiqəti çatdırmaq istəyir ki, bütün ilahi göstərişlər və İslamın mütərəqqi proqramları insanların mənafeyinin qorunması istiqamətində qoyulmuş və bundan başqa heç bir şey nəzərdə tutulmamışdır. Allah-təala bu göstərişlərlə bəndələrə həm ruhi, həm də cismi paklıq bağışlamaq istəyir. Şərif ayənin axırıncı cümləsi ümumi bir qaydada buyurur ki, ilahi hökmlər heç bir halda məntiqsiz zərurət deyildir.



# NƏZƏR DƏYMƏ DOĞRUDURMU?

*İmam Sadiq (ə) buyurub: «Hər vaxt bədnəzərdən qorxsanız, deyin: (Maşaəllah, la hövlə və la quvvətə illa billahil əliyyil əzim)*

## BƏDNƏZƏRİN HƏQİQİ OLMASINA AİD DƏLİLLƏR

Qəti olaraq həqiqəti olan, Quran ayələrinin və İmamlardan (ə) nəql olunan rəvayətlərin də təsdiqlədiyi mövzulardan biri də, bəzi insanlarda bədnəzərin olması və onun təsiridir. Misal üçün: «Yusif» surəsində həzrət Yaqubun (ə) qədd-qamətli övladları Misirə hərəkər edərkən onlara belə tövsiyə etdiyi nəql olunur:

«Mənim övladlarım! Bir qapıdan daxil olmayın; ayrı-ayrı qapılardan daxil olun!» («Yusif» surəsi, ayə: 67)

Biharul-ənvarda yazılıb: «Həzrət Yaqubun (ə), övladlarına etdiyi tövsiyə, onların, gözəl və qədd-qamətli olduqlarına görə, gözə gəlmələrindən qorxduğu üçün idi.»

Peyğəmbərin (s) sünnəti və Əhli-beytin (ə) hədisləri də, bədnəzərin həqiqət olması barədə başqa bir sənəddir.

Misilsiz hədisçi Əllamə Məclisi, rəvayətləri, alim və hikmətli adamların sözlərini nəql etdikdən sonra bu mövzu barədə belə qənaətə gəlir:

وبا لجملة لا يمكن إنكار ذلک رأسا

«Faktlar, Quran ayələri və kifayət qədər hədislərin olması, bədnəzər məsələsinin inkarını mümkünsüz edir. Allah və Onun xəlifələri məsələlərin həqiqətindən agahdırlar.»

Təfsirçi və böyük filosof Əllamə Təbatəbai deyir: «Bədnəzər nəfsani təsirlərin bir növüdür və onun əksinə əqli bir dəlil yoxdur; onu dəstəkləyən hədislər və rəvayətlər vardır. Buna görə də, onu inkar etməyə dəlilimiz yoxdur. Ona, «Bir xurafi əqidədir» deyə bilmərik.»

## BƏDNƏZƏR – ƏKSƏR ÖLÜMLƏRİN SƏBƏBİ

İndi isə bədnəzər və onun təsirləri haqqında olan rəvayətlərə işarə edirik:

Rəsulallah (s) buyurub:

إنّ العين لتدخل الرّجل القبرو الجمل القدر

«Bədnəzər insanı qəbrə daxil edər, dəvəni qazana salar.»

İmam Sadiq (ə) buyurub:

لو كان شئ يسبق القدر لسبقه العين

«Əgər qəza-qədəri qabaqlayan bir şey varsa, o da bədnəzərdir.»

Başqa bir hədisdə deyilir: «Cəbrayıl (ə) nazil olub Peyğəmbərin (s) yanına gəldi. Onu qəm-qüssəli gördükdə, bunun səbəbini soruşdu. Rəsulallah (s) buyurdu:

«Narahatlığım, Həsən və Hüseynə (ə) göz dəydiyindəndir.»

انّ الحسنين اصابتهماعين

Cəbrayıl (ə) dedi: «Bədnəzər həqiqətdir. Onları bu cümlələrlə qoru...»

Səvfan Cəmmalın imam Sadiqdən (ə) nəql etdiyi bir hədis daha təəccüblüdür:

لو نبش لكم من القبور لرأيتم أنّ أكثر موتاكم با لعين لانّ الين حقّ

«Əgər qəbirlər açılıb həqiqətlər üzə çıxsa, ölənlərin əksəriyyətinin bədnəzərdən öldüyünü müşahidə edərsiniz. Ona görə ki, bədnəzər həqiqətdir.»

## RƏVAYƏTLƏRDƏ BƏDNƏZƏRİN DƏRMANI

Bədnəzərin həqiqət olmasını sübut etdikdən sonra onun dərmanını və qarşısını almaq üçün mümkün yolları açıqlayırıq. Bu barədə Əhli-beytdən (ə) çox sayda rəvayət vardır. Onlardan bəzi nümunələrə işarə edirik.

– «Nas» və «Fələq» (müvəzzəteyn) surələrini oxumaq. Bu surələri tilavət etmək, sehr və bədnəzəri dəf etmək üçün təsirli bildirilmişdir.

– Bir şəxsə nəsib olmuş nemət sizi təəccübləndirsə, bu zaman bədnəzərin qarşısını almaq üçün təkbir deyin və Allahı yad edin.

– İmam Sadiq (ə) buyurub: «Hər vaxt bədnəzərdən qorxsanız, deyin:

ما شاء الله لا حول ولا قوّة الاّ بالله العلىّ العظيم

(Maşaəllah, la hövlə və la quvvətə illa billahil əliyyil əzim)

– İmam Rza (ə) göstəriş vermişdir ki, bədnəzərin qarşısını almaq üçün «Həmd», «İxlas» və «Müvəzzəteyn» surələrini və «Ayətəl-kürsü» ayəsini yazıb bədnəzərindən qorxduğu şəxslə öz arasında qoysun.

– İmam Rza (ə) bədnəzər barəsində soruşan adama buyurmuşdur: «Bədnəzər həqiqətdir. Əgər sənə göz dəysə, əllərini üzünün qarşısına tut, ona «Həmd» «İxlas» surələrini və «Müvəzzəteyn»i oxu və əlini üzünə çək ki, bu iş Allahın izni ilə faydalıdır.»

– Başqa bir rəvayətdə nəql olunur ki, evdən çıxan

zaman müvəzzəteyni oxumaq, «Və in yəkadul-ləzinə kəfəru» ayəsini tilavət etmək, «Allah, Allah, ma şəallah, la həvlə və la quvvətə illa billah» zikrini demək və başqa dualar bədnəzərin qarşısını almaqda təsirlidirlər.

– Bəzi rəvayətlərdə deyilir: «Bədnəzərin qarşısını almaq üçün gözə gəlmiş adam qüsl etsin və əgər gözü dəyənin kimliyi məlumdursa, dəstəmaz alsın.

امر الرسول صلى الله عليه وآله اعيان با لوضوء ، و من أصابته العين بالاغتسال

Bu nümunələri ona görə açıqladılar ki, bir yerdə bu barədə görüb, yaxud eşitdiyiniz zaman onu xurafat saymayasınız.

**BƏDNƏZƏR HAQQINDA XURAFAT**

Bir qrup adamlar da vardır ki, bədənəzərin qarşısını almaq üçün bir sıra, heç bir etibarlı dəlilə əsaslanmayan və əql və vicdanın təsdiqləmədiyi, göstərişlərə bel bağlayırlar. Məsələn, üzərriyi yandırıb tüstülətmək, yaxud da onu bir dəstə halında evin qapısının yuxarısından, maşın və binalardan asmaq, şorluğu vasitəsilə gözün şorluğunu aradan qaldırmaq üçün duz qoymaq, yumurta sındırmaq və gözvurmaları ehtimal olunan şəxslərin adlarını saymaq, bədnəzərin qarşısını almaq üçün maşının təkərləri altına yumurta qoymaq və s...

Bu qondarma məsələlər, bədnəzərin qarşısını almaqda təsirsiz olub, bəzən də başqalarına böhtan atmaq, lazımsız yerə pul xərcləmək, mübahisələrin meydana gəlməsi və s. kimi mənfi hallarla nəticələnir.

Xatırladaq ki, bədnəzərlik çox tez-tez baş vermir. Çünki belə şəxslər çox azdır. Buna görə də, insan bədnəzərin həqiqət olması bəhanəsi ilə başqalarını günahlandırmamalı və dözülməz əməllər, adətlərlə özü və yaxınları üçün həyatı çətinləşdirməməlidir.



# ÖLÜMDƏN QABAQ SORUŞULMASI LAZIM OLAN 40 SUAL

**Bu sualların doğru və ya səhv cavabları yoxdur. Bəli, "ölümü və axirəti" yenidən düşündürəcək "40 sualı" özümüzə bu andan etibarən soruşmağa başlaya bilərik.**

*1 - Haradan gəldim və hara gedirəm?*
*2- Bu dünyaya mən nə üçün gəldim?*
*3- Özüm üçün istədiyimi başqaları üçün də istəyirəmmi?*
*4- Cəmiyyət və insanlıq üçün nə etdim?*
*5- Məni xatırladacaq hansı işləri gördüm?*
*6- Bir əsr əvvəlki insanlar indi haradadır?*
*7- Həyatımda ən çox nəyə dəyər verirəm?*
*8- İçimdəki mən ilə əməlim uyğunlaşırmı?*
*9- Bir gün sonra öləcəyimi bilsəm, nə etmək istəyərdim?*
*10- Etdiyim səhvlərin hesabatını verə biləcək səbəblərim varmı?*
*11- Həyatda ən çox əhəmiyyət verdiyim şey nədir? Niyə?*
*12- Peşman olduğum hərəkətləri təkrar edirəmmi?*
*13- Əlimdə çox böyük imkanlarım olsa, başqaları üçün nə edərdim?*
*14- Əlimdə olan imkanlarımın, öldükdən sonra mənə nə faydası olacaq?*
*15- Tənha qaldıqda ən çox nə haqda düşünürəm?*
*16- Səhvlərdən nəticə çıxardırammı?*
*17- Özümdə dəyişdirmək istədiyim ən vacib şey nədir?*
*18- Özümü daxilən təmin etmək üçün nələr edirəm?*
*19- Özümə kimi nümunə götürürəm? Belə bir şəxs varmı?*
*20- Hansı daha əhəmiyyətlidir: müvəffəqiyyətlərim, yoxsa qürurum?*
*21- Başqalarıyla ən çox nəyi bölüşürəm?*
*22- Məni ən çox nə xoşbəxt edir? Niyə?*
*23- Səhv etməmək üçün hansı işləri görürəm?*
*24- Ən çox nəyi sevirəm? Nə üçün?*
*25- Ən çox nədən qorxuram? Niyə?*
*26- Axirətə köç edən qohumlarımı və yaxınlarımı xatırlayırammı?*
*27- Mən də axirətə köç etdikdə məni xatırladacaq hansı işləri görürəm?*
*28- Pis vərdişlərimdən imtinaya cəhd göstərirəmmi?*
*29- Hansı yaxşı vərdişlərim var, başqalarına faydası olurmu?*
*30- Həyatın mənası nədir, mən nə üçün yaşayıram?*
*31- Ən çox birlikdə olduğum 5 adamın xüsusiyyətləri nələrdir?*
*32- Yaşlandıqda mənimlə ən çox kim maraqlanacaq?*
*33- Sevdiyim şəxslərlə daha çox vaxt ayırmaq üçün hansı işləri görürəm?*
*34- Qapı qonşumla əlaqələrim necədir?*
*35- Etdiyim səhvlərə görə üzr istəyirəmmi?*
*36- Halımdan razıyam, yoxsa şikayətçi? Niyə?*
*37- Özümü kimlərlə müqayisə edirəm?*
*38- Gələcəkdə özümü bir insan kimi necə görmək istəyirəm?*
*39- Qazancımın nə qədəri alın təridir?*
*40- Səhər yuxudan durduqda nə haqda düşünürəm?*

# SUAL CAVAB

## Niyə görə Allahdan bağışlanmaq dilərkən Peyğəmbər(s)-i və Əhli-Beyti(ə)-ı vasitə seçirik, axı bu günah deyilmi?

Xeyr, bu günah deyil, əksinə onların hacətlərini vasitə ilə Allahdan istəməsinin xeyri daha böyükdür. Çünki, Allah Quranda buyurur: "Biz hər bir peyğəmbəri, ancaq Allahın izni ilə itaət olun deyə göndərdik. Onlar (günahkarlar) özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi, əlbəttə Allahın tövbələri qəbul edən və mərhəmətli olduğunu bilərdilər." ("Nisa" surəsi, ayə-64) "(Oğlanları ona–Yəqub peyğəmbərə) Bizim üçün günahlarımızın bağışlanmağını dilə. Biz doğrudan da günahkar olmuşuq! Dedilər." ("Yusif" surəsi, ayə-97) "(Yəqub peyğəmbər) Dedi:- Mən tezliklə Rəbbimdən sizin bağışlanmağınızı diləyəcəm. O həqiqətən bağışlayan və rəhm edəndir." ("Yusif" surəsi, ayə-98) Ayələr açıq-aydın göstərir ki, əməli-saleh insanı Allaha vasitəçi seçmək heç də günah deyil. Bütün müsəlmanlar bir-biri üçün dua etməlidirlər. Ancaq əməli-saleh, pak Allahın əziz bəndəsinin duası daha tez qəbul olunar.

Bir gün kor bir kişi Peyğəmbər(s)-in yanına gəlib dedi: "Allahdan mənim şəfa tapmağımı dilə. " Peyğəmbər(s) buyurdu ki, iki rəkət namaz qıldıqdan sonra belə dua et: "İlahi mən səndən kömək diləyirəm və mehriban peyğəmbər olan Məhəmmədin vasitəsilə sənin qapına üz gətirirəm! Ey Məhəmməd, mən ehtiyacım haqqında və sənin vasitənlə Allaha üz tuturam ki, mənim hacətimi yerinə yetirəsən. İlahi onu mənə şəfaətçi qərar ver." (Əhməd ibn Hənbəlin "Müsnəd" kitabı c. 1, səh. 313 (Beyrut çapı), "Sünəni İbni Macə" c. 1, səh. 441 və İbni Teymiyyənin "Ət-təvassül vəl-vəsilə" kitabı, səh. 98 (Beyrut çapı))

## Niyə görə ziyarətgahlara gedib dua edir məsumlardan kömək istəyirik?

Cəfəri məzhəbi insanın nə ölüsündən, nə də dirisindən hacət istəmir. Onlar Peyğəmbərə və imamlara xatir Allahdan istəyir. Allah həmişə duanı qəbul etməyə qadirdir. Bundan əlavə "Allah yolunda öldürülənləri heç də ölü zənn etmə! Xeyr, onlar öz Rəbbləri yanında diri olub ruzi (Behit nemətlərindən) yeyirlər." ("Ali İmran" surəsi, ayə-169) Ölüm sonluq və heçlik deyil, başqa bir aləmə keçiddir.

Əhli-sünnə alimlərinin qəbri ziyarət etmək haqqında da hədisləri çoxdur, o cümlədən; "Səhihi Müslüm" c. 3 və "Qəzali Əxbarul-uyun" c. 1 kitablarında Həzrət Peyğəmbər(s)-dən belə nəql olunur: "Hər kəs mənim qəbrimi ziyarət etsə mənim şəfaətim ona vacib olar." Bu hədisdən görünür ki, qəbri ziyarət edib şəfa tapmaq olar. Ancaq bilmək lazımdır ki, şəfanı qəbir vermir, qəbir sahibinin Allah yanında olan uca məqamına xatir Allah özü verir. Aydın olur ki, Allah Peyğəmbərinin qəbrini ziyarət etdiyinə və orada dua etdiyinə görə insanın duasını daha tez qəbul edir. "Müsnədi Əbu Davud" 1-ci c. səh. 12-də Peyğəmbər(s)-dən nəql edilərək yazılır ki,Peyğəmbər(s) buyurdu: "Hər kəs mənim vəfatımdan sonra Həccə gələ və mənim qəbrimi ziyarət etməyə, əlbəttə ki, mənə cəfa etmiş olar." "Hər kəs mənim vəfatımdan sonra məni ziyarət etsə, sanki məni dirilikdə ziyarət etmişdir."

Bütün bunları əldə rəhbər tutaraq Cəfəri məzhəbinə mənsub olanlar Peyğəmbər(s)-in və məsum imamların qəbrini ziyarət edirlər. Bu, ancaq Allaha xatirdir. Bu ziyarətlər Peyğəmbər və Əhli-Beytinin məhəbbətini qəlblərdə çoxaldır. Çünki, Peyğəmbər(s) və Əhli-Beyt(ə) Allahın hökmlərini qoruyanlar, ən yaxşı əməl edənlər və yayanlardır. Əhli-sünnənin də dörd məzhəb (Hənəfi, Hənbəli, Şafei, Maliki) alimlərinin qəbri ziyarət etmək haqqında hökmləri vardır. "Hüsnüt-təvasül-fi adabi ziyarəti əfzəlür-rəsul" kitabı yazır ki, Peyğəmbərin qəbrini ziyarət etməyə məhəbbət bəsləmək, evdən çıxıb ziyarətə gedərkən dua oxumaq, yol gedərkən Peyğəmbərə çoxlu salavat göndərmək, Mədinəyə çatanda dua oxumaq,



Hərrə çayında qüsul edib Mədinəyə daxil olmaq, Cəbrail qapısından içəri daxil olmaq, Peyğəmbərin məscidini gördükdə təvazökarlıq edib, onu böyük tutmaq, ziyarət vaxtı ayaq üstə durmaq, ziyarətnamə oxumaq, əlləri şərif qəbrə sürtüb, öpmək əhli-sünnə alimlərinin fətvasına əsasən müstəhəb əməllərdir. Əhli-sünnə alimlərinin bildirdiyinə əsasən, Peyğəmbər(s) İslamın əvvəllərində qəbirləri ziyarət etməyi qadağan etmişdi. Çünki, onların əksəriyyəti müşrik və kafirlərin qəbri idi. Lakin İslam dini təkmilləşəndən sonra Peyğəmbər(s) buyurdu: "Mən sizlərə qəbirləri ziyarət etməyi qadağan etmişdim. Lakin bu gündən etibarən sizləri qəbirləri ziyarət etməyə çağırıram." Hədislər "Səhihi Müslüm" c. 3, səh.65, "Sünnəni Əbu Davud" c. 2, səh.195, "Səhihi Tirmizi" c. 3, səh.274 kitablarından nəql edilmişdir. Hədisdən də göründüyü kimi, Peyğəmbər(s) bizi qəbirləri ziyarət etməyə çağırır.

## Niyə görə biz Peyğəmbər(s) və Əhli-Beyt(ə)-ın şəfa verə bilməsinə inanırıq, axı Quranın "Yunis" surəsi 106-cı ayə buyurur: "Allahdan başqa sənə nə bir xeyir, nə də bir zərər verə biləni çağırma."?

"Yunis" surəsi 106-cı ayədə bütlər və tanrılar nəzərdə tutulur ki, bu da müşriklər haqqında deyilmişdir. Biz isə bunu Allahın qüdrəti və möcüzəsi kimi qəbul edir, İslam Peyğəmbəri(s) və Əhli-Beyt(ə)-ın Allahın qüdrəti ilə şəfa verə bilməsində inkar edilməz dəlilləri var. "Allahın izni ilə ölüləri diriltdirəm." "Ali İmran" surəsi, ayə-49-da İsa peyğəmbərin dilindən belə buyurulur. Peyğəmbərimiz və Əhli-Beytin Allahın qüdrəti ilə şəfa verə bilməsinə gəldikdə isə bu hadisələr tarixdən bizə çox tanışdır və dəfələrlə bu kimi halların şahidi olmuşuq. Ancaq biz o misallarla deyil, Quran ayəsi və hədislərlə cavab verəcəyik: "Bu köynəyimi aparın atamın üzünə sürtün və yenidən görməyə başlayar." ("Yusif" surəsi, ayə-93) Başqa yerdə "Muştuluqçu gəlib köynəyi Yəqubun üzünə sürtən kimi onun gözləri açıldı." ("Yusif" surəsi, ayə-96) Yusif peyğəmbərin köynəyi Yəqub peyğəmbərin gözlərinə şəfa verdi. Göründüyü kimi peyğəmbərin köynəyi insan gözünə nur verə bilər və buna ancaq kafirlər inanmaz. İslam peyğəmbəri(s) buyurur: "Mənə beş şey verildi ... və şəfaət də əta edildi." ("Səhihi Buxari" c. 1, səh. 91 (Misir çapı), Əhməd ibn Hənbəl "Müsnəd" kitabı c. 1, səh. 301) Göründüyü kimi Allahın izni ilə şəfaət verilə bilər.

## Ölüyə Quranın "Yasin" surəsini oxumaq olarmı?

Biz bu suala yenə məşhur əhli-sünnə alimlərinin topladığı hədislərlə cavab verəcəyik. Məhəmməd Həqqi həzrətləri "Sirlər Xəzinəsi" kitabında ("Hazinətül-Esrar" tərcüməsi türk dilində səh.578) Tirmiz Mekat ibn Yaşardan nəql edir ki, (1038-ci hədis) Peyğəmbər(s) buyurub: "Yasin" surəsi Quranın qəlbidir. Axirət yurdunu diləyərək bunu oxuyan insan mütləq bağışlanar. O halda bu surəni ölüləriniz üzərində də oxuyun." "İslami həqiqətlər" kitabında Əhməd Salman (360-cı səhifə, türk dilində) Buxari ibni Ömərdən, Təbəri Əbu Hüreyradan nəql edir ki, (1040-cı hədis) Peyğəmbər(s) buyurub: "Gecə sırf Allah rizası üçün "Yasin" surəsini oxuyan kimsənin günahları bağışlanar. O halda bu surəni ölülərinizə də oxuyun."

Bunlardan əlavə Əbu Bəkirdən və ibni Abbasdan rəvayət edilmişdir ki, ("Ruhil-bəyan" təfsiri "Dörd səhih hədis" kitabı Əbu Hüreyradan, 1044-1066-cı hədis)Peyğəmbəri Əkrəm buyurub: "Qəbristanlığa girib "Yasin" surəsini kim oxuyarsa, mütləq o gün üçün o qəbirdəkilər həfiflənmiş olarlar. Oxuyana da oradakı ölülər sayısınca savab verilər." Əhli-sünnə alimlərinin topladığı hədislərdən aydın olur ki, ölüyə "Yasin" surəsini oxuyarkən həm ölünün ruhu şad olur, həm də oxuyan kimsəyə savab yazılır.



# Allahın təkliyinə inanan
# İSAAK NYUTON

***Bütün zamanların ən böyük alimlərindən biri olan İsaak Nyuton haqqında söhbət açılanda öncə alma yada düşür***

*Deyilənlərə görə, Nyuton cazibə qüvvəsi nəzəriyyəsini öz bağlarındakı alma ağacının kölgəsində oturub dincələn zaman başına düşən alma ilə əlaqədar olaraq verib. Bu, bəlkə də, kimlərinsə uydurmasıdır.Amma yazılanlara görə, Nyutonun cazibə qüvvəsinə dair elmi işləri Avropada fransız yazıçısı və maarifçi filosofu Volterin (1694 - 1778) sayəsində yayılıb. Volter ömrünün son illərində İngiltərəyə gedib-qayıdandan sonra Nyutonun ona böyük təsir bağışlayan cazibə qanununu təbliğ etməyə başlayıb. Nyutonun başına düşən alma haqqında məlumatı da dünyaya o yayıb. Volter onu da deyib ki, alma barədə məlumatı Nyutonun böyük hörmətlə 20 il ərzində öz evində saxladığı qohum qızdan alıb.*

İsaak Nyuton ingilis riyaziyyatçısı, mexanik və fiziki, astronom və astroloqu, müasir fizikanın banilərindən biri olub. Nyuton mexanikanın əsas qanunlarını formalaşdırıb, bütün fiziki hadisələrin təsvirinin vahid fiziki proqramını yaradıb. O, ümumdünya cazibə qüvvəsini kəşf edib, planetlərin Günəş ətrafında və Ayın Yer ətrafında hərəkətinin , habelə okeanlarda qabarma və çəkilmənin izahını verib. Akustikanın və fiziki optikanın əsasını da bu alim qoyub. Diferensial və inteqral hesabı Nyuton işləyib hazırlayıb. İşıq dispersiyasını, xromatik aberrasiyanı o kəşf edib, interferensiya və difraksiyanı araşdırıb, işığın korpuskulyar nəzəriyyəsini genişləndirib, güzgülü teleskop hazırlayıb, səma mexanikasının əsaslarını yaradıb. Sələflərinin və özünün mexanika sahəsində tədqiqatlarının nəticələrini ümumiləşdirərək alim “Natural fəlsəfənin riyazi başlanğıcı” adlı möhtəşəm əsərini ərsəyə gətirib. 1687-ci ildə nəşr olunmuş bu əsərdə mexanikanın əsas məfhumları və prinsipləri üç məşhur qanun - ətalət qanunu, hərəkətin kəmiyyətinin sərf edilmiş qüvvəyə proporsionallığı qanunu, təsir və əks - təsir qanunu şəklində formalaşdırılmışdır. Daha bir konsepsiya onun adı ilə bağlıdır. Nyuton bu konsepsiyasında Günəş sisteminin vəhdətdə olmasında israrlı idi. O, Günəş sistemini atomun quruluşuna oxşadırdı. Günəş protonla müqayisə edilən pozitiv enerjinin mərkəzi mənbəyi kimi təqdim olunur, planetlər isə elektronlara bənzədilirdi. Yer kürəsinin sakinləri isə qaz təbəqəsi ilə örtülmüş elektronlardan birində qərar tutmalı idi. Nyuton optika sahəsində də böyük nailiyyətlər qazanmışdır. 1666-cı ildə üçtərəfli şüşə prizma vasitəsilə ağ işığı yeddi rəngə(spektrə) ayırmış, beləliklə də onun mürəkkəbliyini( dispersiya hadisəsini) sübuta yetirmiş, xromatik aberrasiyanı kəşf etmişdir. Teleskoplarda aberrasiyaya (optik sistemdə alınan təsvirlərin təhrif olunması) yol verilməməsi üçün orijinal sistemli- güzgülü(əksetdirici) teleskop-reflektor hazırlamışdı. Bu teleskopda linza əvəzinə batıq sferik güzgüdən istifadə olunmuşdu. Həmin teleskop Nyuton teleskopu adlanırdı. O, optik tədqiqatlarını “Optika” əsərində şərh etmişdi.

Nyuton dərin inamı olan xristian idi. O, təkcə dünyəvi elmlə deyil, həm də teologiya, ilahiyyat elmi ilə məşğul idi. Onun üçün elm ilahiyyatdan ayrılmaz idi. O, insan qəlbini, eləcə də şeytanlar və mələkləri də maddi varlıq sayırdı. Ona görə də Nyuton xristianlığı anlamaq baxımından azlıqların içindəydi. O, Allahı vahid varlıq kimi qəbul edir, İsanı (ə) isə sadəcə peyğəmbər sayırdı. Buna baxmayaraq, İncili həqiqi fakt kimi qəbul edib, həyatını ona uyğun qururdu. Kəşf elədiyi qanunların hamısı onun üçün yalnız sona yaxınlaşan dövriyyənin qanunları kimi qalmaqdaydı. Apokalipsis, yəni axır zamana, dünyanın sonuna inanır və onun tezliklə olacağını düşünürdü. Onun əsərlərini, xüsusilə də apokalipsis haqqında yazdıqlarını oxuyandan sonra müasirlərinin onu Allahsız adlandırmağını qəbul etmək olmur.



# Təqvimlər

**Hicri qəməri təqvimi**

Hicri qəməri təqvimi Həzrət Muhəmmədin (s) Məkkədən Mədinəyə hicrət etməsi ilə başlanan tarix sistemidir. Hicri təqvimi özlüyündə: hicri qəməri və hicri şəmsi təqvimlərinə bölünür.

Belə ki, Həzrət Muhəmməd (s) Mədinəyə hicrət etmək məqsədilə Məkkədən ayrılır. Dörd gün Sur mağarasında qaldıqdan sonra miladi təqvimi ilə 622-ci ildə Quba adlanan kəndə çatır və burada ilk məscidi inşa edirlər. Burada dörd gün qaldıqdan sonra Rəbiüləvvəl ayının on ikisi Mədinəyə doğru hərəkət edirlər. Beləliklə, 20 sentyabr 622-ci il müsəlman tarixinin başlanğıcı günü elan olunur.

Yerin Günəş ətrafında dövr etməsi ilə hesablanan tarix isə «hicri şəmsi» adlanır. İslamiyyətdən əvvəl hər bir tarix həmin ildə baş verən mühüm hadisələrlə yadda qalardı. Fil əhvalatı (Həzrət Muhəmmədin (s) dünyaya gəldiyi il) isə ən son təqvim başlanğıcı olaraq qəbul edilmişdi.

Qəməri təqviminin ayları bunlardır: məhərrəm, səfər, rəbiüləvvəl, rəbiülaxır, cəmadiül əvvəl, cəmadiül axır, rəcəb, şaban, ramazan, şəvval, zilqədə, zülhiccə.

Miladi təqvimində olduğu kimi, hicri təqvimində də artıq illər mövcuddur. Belə ki, 30 ildə 11 günlük geriləmə müşahidə olunur. Bu geriləməni düzəltmək üçün 2, 5, 7, 10, 13, 15, 18, 21, 24, 26 və 29-cu illər 355 gün, digər illər isə 354 gün hesablanır. Ayın Yer ətrafına 12 dəfə dövr etdiyi zaman bir qəməri təqvimi başa çatmış olur - 354, 367 gün (354 gün, 8 saat, 48 dəqiqə, 34,68 saniyə). Yerin Günəş ətrafına bir dəfə dövr etməsi ilə bir miladi ili sona çatmış olur - 365, 2422 gün. Hicri ili miladi ilindən (365,2422-354, 367 =10, 8752) daha qısa olduğu üçün aylar 29, bəzən də 30 gündən ibarət olur.

**Miladi təqvimi**

Miladi təqvimi hazırda beynəlmiləl təqvim olaraq istifadə olunan Rum təqviminə əsaslanır. Miladi təqvimi də bu günümüzə qədər bir sıra dəyişikliklərə məruz qalmışdır. Başlanğıcda bir ildə aylardan dördü 31, altısı 30 gün olan bu təqvim 10 ay 304 gündən ibarət olmuşdur.

Miladdan əvvəl VII yüzillikdə Roma imperatoru Numa Pompilusun zamanında Ayın Yerin ətrafına dövr etməsi və ayların təzə ayın doğması ilə başlanan 12 ay 354 günlük təqvimə keçilir. Bu təqvim sistemində mövsümlər arasındakı uyğunsuzluqları nizamlamaq üçün iki ildə bir dəfə - 22 fevral 23 fevral arasına 22 (artıq illərdə isə 23) günlük Mercedeniyus adlı 13-cü ay əlavə olunardı.

Beləliklə, adi halda bir il 365, artıq illərdə isə 366 gün olardı. Mövsümlər arasındakı uyğunsuzluğu aradan qaldırmaq üçün həmin ay 33 və 34 günlük noyabr və dekabr aylarının arasına salınır.

Eramızdan əvvəl 45-ci ildə Roma imperatoru Yuli Sezar İskəndəriyyə astronomu Sosigenesin tövsiyəsi ilə dünyanın Günəşin ətrafına dövr etməsinə əsaslanan 365, 25 günlük təqvim sistemini daha münasib hesab etmiş və dördə bölünən artıq illər 366, digərləri isə 365 gündən ibarət olan yeni təqvimi qəbul edir. Onun dekabr ayı ilə başlanan yeni təqvimin 7 ayı 31 gün , 4 ayı 30 gün 1 ayı isə 28 (29) gündən ibarət idi.

**Qriqorian təqvimi**

Bu il 365, 2422 gün olduğu halda, Yuliyan təqvimində bir gün alındığı, həmçinin təqvimdən 0,0078 gün qısa olduğu, eləcə də 400 ildə 3 gün geri qaldığından1582-ci ildə XII Papa Qriqoris Yulian təqvimində aşağıdakı islahatları aparır:

1. Miladi təqvimi ilə 325-ci ildə təşkil olunan toplantıda 1582-ci ilə qədər 1257 il içərisində Yulian təqvimi ardıcıl olaraq10 gün geri qaldığından 4 oktyabr günündən sonra gələn 5 oktyabr deyil, 15 oktyabr olaraq qəbul edilsin.

2.Son iki rəqəmi «00» olan illərdən 400-ə tam bölünən illər (1600, 2000 və s.) artıq il, 400-ə bölünməyən və son iki rəqəmi «00» olan illər isə normal illər qəbul edilsin.

3. Həzrət İsanın (ə) doğum günü tarixin başlanğıcı təyin edilsin.

Qriqorian təqviminə görə, bir il orta hesabla 365,2425 gündür.

**Rum təqvimi**

Miladi 1840-hicri 1256 ilinə qədər Həzrət Muhəmmədin (s) Məkkədən Mədinəyə hicrətinin başlanğıcı qəbul edən və Ayın Yerin ətrafına dövr etməsini əsas gətirərək, 354,367 günlük qəməri təqvimi sistemi üzərinə miladi 1840-hicri 1256 ilindən etibarən və Yerin Günəşin ətrafına dövr etməsi əsas gətirilən 365,2422 günlük şəmsi təqvimi sistemi üzərində qurulan qarışıq təqvim sistemidir.

**Hicri təqvimini miladi təqviminə çevirmə üsulu:**
**Hicri təqvimi 33-ə bölünür.**
**Məsələn: 1420:30=43,03 (=43) (A ədədi);**
**A ədədini hicri ilindən çıxın: 1420-43=1377 (B ədədi);**
**Sonra B ədədini 622 ilə toplayın: 1377+622=1999.**
**Miladi təqvimini hicri təqviminə çevirmə üsulu**
**Miladi ilindən 621 rəqəmini çıxın: 1999-621=1378 (A ədədi);**
**A ədədini 33-ə bölün: 1378:33=41,75 (=42) (B ədədi);**
**Sonra A ədədini B ədədi ilə toplayın: 1378+42=1420.**

## Namaz qılmırsanmı? O, sənə qıldırar!

Bir kişi, minəcəyi avtobusun tərpənməsinə bir saatdan çox müddət olduğu üçün terminalın yarı işıqlıq koridorlarını gəzinirdi. Əllərini yumaq üçün bir az irəlidəki məscidə yaxınlaşdığında, iş geyimində bir gənc ona doğru gələrək:

- "Hər halda namaz qılacaqsınız. Dəstəmaz almaq yerimiz də var." dedi.

Adam, əlindəki siqaretin külünü cavanın ayaqları dibinə silkələyərək:

- "Sən hə rhalda gözətçisən" deyə dikləndi. "Nə iş görürsən burada?"

Cavan, küncdəki süpürgəyə işarə edərək:

- "Təmizlikçiyəm" deyə kəkələdi. "Hamam və tualeti təmizləyirəm."

Adam, onu kinayəli gözlərlə süzərək:

- "Mən, namazı sənin kimi çulsuzlara buraxdım" deyə təkəbbürlə güldü.. "Bu iş sizə elə yaraşır ki…"

Təmizlikçi gənc, adamın təhqirinə aldırmayacaq qədər olqun (yetişmiş, mükəmməl) idi. Lakin namaza qarşı edilən hörmətsizlik, canını çox sıxmışdı. Verəcəyi cavabı bir müddət düşündükdən sonra, susmağı seçərək işinə qayıtdı.

Adam, məğrur addımlarla oradan uzaqlaşarkən, başının fırlandığını hiss etdi. Kürəyindən çıxardaraq qoluna götürdüyü kaşmir paltonun ağırlığını da ilk dəfə fərqinə varırdı. Bir az əvvəl yediyi iki boşqab kabab, hər halda təzyiqini yüksəltmiş və özünü halsız eləmişdi. Bir neçə addım daha atdıqdan sonra birdən halı pisləşərək dizləri üzərinə çökdü. Xöşbəxtlikdən qolundakı palto ondan əvvəl yerə sərilmiş və yeni aldığı kostyumun çirklənməsini mane olmuşdu. Adam, çöməlmiş vəziyyətdə olmasına baxmayaraq fırılanan başını yerə söykəyərək bir müddət dinləndi və təkrar dikəldi, yenidən rahatlığı hiss edərək eyni hərəkətini təkrarladı. Lakin, başqaları tərəfindən bu halda görülməsi onu rəncidə edirdi. Bunun üçün başını yerdən qaldırıb sağa sola baxdıqda, terminalın çayçısı olan bir gənclə burun-buruna gəldi. Cavan, kişini hörmətli bir ifadəylə salamlarkən:

- ALLAH qəbul etsin əmi, dedi. Amma qiblə bir az daha sağa doğru idi.

## Loğmanın (ə) hikmət qazanmasının sirri

Loğmanın (ə) yaşayışındakı ən maraqlı mövzu onun necə hikmət qazanması olubdur. Başqa sözlə desək, "Loğmanın (ə) hansı əməlinə görə, Allah-taala ona hikmət nemətini bəxş etdi?"-sualına cavab tapmalıyıq. Əgər bu sirr açılsa, başqaları da öz zəhmət və istedadları ilə hikmət nurunu əldə edə bilərlər.

Yuxarıdakı sualın qısa cavabı budur ki, hikmət nurunun İlahi qanunlarına görə, özünəməxsus müqəddimələrə ehtiyacı var. Onlardan ən əsası iman, ixlas, saleh əməl, zöhd və halal yeməkdir. Hikmətin müqəddiməsi haqqında ən kamil söz, həkimlərin ağası olan İmam Əliyə (ə) mənsubdur ki, buyurub:

"Hər kəs qırx gün ixlaslı olsa, halal yesə, gündüzləri oruc tutub, gecələri ibadət etsə, Sübhan Allah hikmət bulaqlarını onun qəlbinə və dilinə axıdar".

Amma yuxarıdakı sualın təfsilatı ilə cavabı:

Loğman (ə) haqqında müxtəlif rəvayətlərdə hikmətin şərtlərindən bir sırasına işarə olunmuşdur. Necə ki, Peyğəmbərdən (s) nəql olunur:

"Həqiqətən, bildirirəm ki, Loğman (ə) peyğəmbər deyildi. O, mütəfəkkir bir qul idi. Gözəl yəqinə (imana) malik idi. O, Allahı sevir, Allah da onu sevirdi. Allah ona hikmət əta etməklə, onun boynuna minnət qoydu".

Başqa bir rəvayətdə gəlib:

Bir kişi Həkim Loğmanın (ə) qarşısında durub ona dedi: Sən Loğmansan? Sən Bəni-Nuhasın qulusan?

Loğman (ə) cavab verdi: "Bəli".

Kişi dedi: Sən həmin qara çobansan?

Loğman (ə) cavab verdi: "Qaralığım ki məlumdur! Nə üçün mənim haqqımda heyrətdəsən?"

O kişi dedi: Camaatın sənin evindəki izdihamı, evinin qapısına yığılmaları və sənin sözlərini qəbul etmələri.

Loğman (ə) dedi: "Qardaşoğlu, əgər sənə dediklərimi yerinə yetirsən, sən də belə olarsan".

Soruşdu: Nəyi?

Loğman (ə) dedi: "Gözlərimi (günahdan) bağlamağım, dilimi qorumağım, yeməyimin paklığı, ətəyimin paklığı (haram şəhvətdən uzaq olmağım), əhdimə vəfa etməyim və peymana bağlılığım, qonaqpərvərliyim, qonşumu qorumağım və xoşagəlməz işlərdən uzaq qalmağım. Bu işlərin nəticəsindədir ki, sənin gördüyün bu həddə çatmışam".

Başqa bir rəvayətdə oxuyuruq:

"Loğmana (ə) belə dedilər: Sən filan qəbilənin qulu

deyilsənmi?

- Bəli.

- Bu məqama necə çatdın?

- Əmanətdarlığım, mənə yaraşmayan işlərdən uzaq qalmağım, gözlərimi (günahdan) bağlamağım, dilimi qorumağım və yeməyimin paklığı ilə. Hər kəs bu işlərdən az görürsə, məndən aşağı, çox görürsə, məndən yuxarı, eyni bu işləri görürsə, mənimlə bərabərdir".

Başqa bir rəvayətdə gəlib:

"Bir kişi Loğmanın (ə) yanından keçərkən camaatın onun yanında durduğunu gördü. Loğmana (ə) dedi: Sən Bəni-filanın qulu deyilsənmi?

- Bəli.

- Filan yerdə, filan dağda çobansan?

- Bəli.

- Bəs bu məqama necə çatdın?

- Doğru danışmaq və mənə aid olmayan söhbətə qarışmamağımla".

* * *

Qütbüddin Rəvəndi "Lübbül-əlbab" kitabında yazır: "Loğman (ə) bir parça kağız görür ki, orada "Bismillah" yazılmışdı. Onu götürüb yeyir. Buna görə Allah ona hikmət əta edir".

Loğmanın (ə) hikmət qazanmasının sirri haqqında ən kamil söz, İmam Sadiqdən (ə) rəvayət olunmuş hədisdir: "Agah olun! And olsun Allaha ki, Loğman (ə) nəslinə, malına, ailəsinə, cismi qüdrətinə və gözəlliyinə görə hikmət qazanmadı. O, Allah yolunda güclü və təqvalı idi. Aram, sakit, dərin düşünən, mütəfəkkir, dəqiq görən və ibrət (dərslərinin) ustadı idi. Heç vaxt gündüz yatmazdı. O qədər iffətinə riayət edirdi ki, heç kim onu ayaqyolunda olan halda və özünü təmizlədiyi vəziyyətdə görmədi. O dərin baxışlara malik idi və ehtiyatla iş görürdü. Günah etmək qorxusundan, heç vaxt bir şey üçün (rişxəndlə) gülmədi, əsəbləşmədi, bir kəslə zarafat etmədi, dünya malı əlinə gələndə sevinmədi, əlindən çıxanda da kədərlənmədi. Bir neçə qadınla evləndi. Onlardan bir çox övladlar nəsibi oldu. Özündən əvvəl onların ölümü ürəyinə dağ çəksə də, heç birinin ölümünə ağlamadı. Hər vaxt iki küsülü, yaxud davalı adamlarla rastlaşsaydı, onların arasında dostluq və saziş yaradırdı. Hər vaxt bir kəsdən xoşuna gələn bir söz eşitsəydi, o sözün şərhini və qaynağını soruşurdu. Fəqih və həkimlərlə çox oturub-durardı. Hakimlərə, sərkərdələrə və padşahlara baş çəkirdi. Hakimlərə ürək yandırır, sərkərdə və padşahlara isə Allahı unutduqları və Ondan uzaq olduqları üçün, hidayət olsunlar deyə, qarşı çıxardı. İbrət öyrəndi. Nəfsani istəklərə qarşı çıxa biləcək bütün amilləri öyrənib, onların vasitəsilə (haram şəhvani istəklərinə qarşı) mübarizə etdi. O amillərin köməyi ilə şeytandan uzaqlaşdı. Fikirlə qəlbini, ibrətlə ruhunu dərman etdi. Faydasız bir yerə köç etməzdi. Bu cəhətlərə görə, ona hikmət verildi və ismət bağışlandı".

**Xatırladaq ki, bu rəvayətlər bir-biriləri ilə zidd deyillər. Çünki onlardan hər biri Loğmanın (ə) həqiqi-hikməti kəsb etmə səbəblərindən bir qismidir. Başqa sözlə desək, bu səbəblərin hər birinin hikmət nurunun Allah-taala tərəfindən Loğmana (ə) əta olunmasında rolu olmuşdur.**

## Bir gecənin tövbəsi

Allahu Təala, Peyğəmbəri Musa Əleyhissalama xitab edib: «Ey Musa! Filan məhəllədə, bizim dostlarımızdan biri vəfat etdi. Get onun işini gör. Sən getməzsənsə, bizim rəhmətimiz onun işini görər» buyurdu.

Həzrəti Musa, əmr olunduğu məhəlləyə getdi. Ordakılardan:

— «Bu gecə, burada Allahu Təalanın dostlarından biri vəfat etdimi?» deyə soruşduqda.

— «Ey Allahın peyğəmbəri! Allahu Təalanın dostlarından kimsə vəfat etmədi. Amma filan evdə zamanını pisliklərlə keçirən bir gənc öldü. Pis əməllərinin çoxluğundan heç kim onu dəfn etməyə yanaşmır» dedilər.

Musa Əleyhissalam: «Mən onu axtarıram» buyurdu. Göstərdilər.

Həzrəti Musa, o evə girdi. Rəhmət mələkləri gördü. Ayaqda dayanıb, əllərində rəhmət qabları olub. Allahu Təalanın rəhmət və lütfünü saçırdılar. Həzrəti Musa, yalvararaq münacaat etdi:

— «Ey Rəbbim! sən buyurdun ki, „O mənim dostum". İnsanlar isə pis olduğuna şahidlik edirlər. Hikməti nədir?»

Allahu Təala: «Ey Musa! İnsanların onun üçün pis demələri doğrudur, amma günahından xəbərləri var, tövbəsindən xəbərləri yoxdur. Mənim qulum, səhər vaxtı, torpağa əyildi və tövbə etdi. Bizim hüzurumuza sığındı. Mən ki Allaham! Onun sözünü və tövbəsini qəbul etdim. Ona rəhmət etdim ki, bu dərgahın ümidsizlik qapısı olmadığı aydın olsun» -deyə buyurdu.

# ƏMMAR YASİR

Doğulduğu tarix: Fil ilindən 4 il əvvəl
Atası: Yasir ibn Əmir
Anası: Süməyyə bint Xəbbab

O dövrdə Yəməndə kəskin quraqlıq baş verdiyindən Əmmarın atası Yasir Məkkəyə gəlir. Burada bir müddət yaşadıqdan sonra Məxzum qəbiləsinin pak kənizlərindən olan Süməyyə ilə evlənir. Bu evlilikdən Əmmar dünyaya gəlir.

Əmmar məzlumların əziyyət çəkdiyi cəmiyyətdə böyüyür. Həzrət Məhəmmədin (s) peyğəmbərliyə təyin olunduğu dövrdə Əmmar və onun ailəsi İslamı qəbul edən ilk müsəlmanlardan idi. Bu ailə Peyğəmbərlə (s) çiyin-çiyinə müqavimət, səbir və fədakarlıq nümayiş etdirdi. Əmmarın ata-anası İslamın ilk şəhidləri idi.

Əmmar isə Peyğəmbərin (s) göstərişi ilə digər müsəlmanlarla birlikdə Həbəşə köçür. Bu dəstə özünü Qureyşlilərdən qorumaqla bərabər, orada İslamı təbliğ etməli idilər.

İslam Peyğəmbərinin (s) Mədinəyə hicrətindən sonra Əmmar da Həzrət Məhəmmədə (s) qoşulur. O, Mədinə məscidinini tikintisində iki nəfərin işini görür, ağır daşlar daşıyır. Peyğəmbər (s) «Əmmar, özünü bu qədər zəhmətə salma», deyə buyuranda Əmmar cavab verir: «Bu məscidin tikintisində daha artıq işləmək istəyirəm». Həzrət (s) əlini Əmmarın çiyninə qoyaraq buyurur: «Sən behişt əhlisən».

Həzrət Məhəmmədin (s) Əmmar haqqında buyurduqları onu müsəlmanlara tanıtdırır və daha da sevdirirdi. Peyğəmbər (s) «Əmmar başdan-ayağa imanla doludur. İman onun ətinə-qanına hopub» deyə buyururdu. Başqa bir hədisdə İslam Peyğəmbəri (s) buyurur: «Behişt Əmmarın həsrətindədir». Sevimli Peyğəmbərimizin (s) onun haqqında buyurduqları Əmmarın üstünlüyünün, fəzilətinin təsdiqidir. Nəql olunan hədislər Əmmarın şəxsiyyətinin ucalığını göstərir.

Həmin vaxtlar Əmmarla Osman arasında mübahisə baş verir. Peyğəmbər (s) bu barədə eşidib buyurur: «Əmmardan nə istəyirlər? Əmmar onları behiştə dəvət edir, onlar isə Əmmarı cəhənnəmə sürükləyirlər. Əmmar mənim üçün iki gözüm kimidir».

Əmmar Peyğəmbər (s) və Əhli-Beytlə (ə) birlikdə döyüşlərdə iştirak edir, şücaətlər göstərir.




Əhzab döyüşündə xəndək qazılarkən Əmmar var qüvvəsi ilə çalışır. Yorğun, taqətsiz, üz-gözü torpağa bulaşmış Əmmarı görən Peyğəmbər (s) buyurur: «Xəbərdar ol, ey Süməyyəoğlu, zalım qövm səni öldürəcək». Bu cümləni Həzrət Məhəmməd (s) dəfələrlə, eləcə də, Mədinə məscidi tikilərkən buyurub. Buna görə də Əmmarın Müaviyə ilə döyüşdə şəhid edilməsi Müaviyənin müharibəsinin ədalətsiz olduğunu sübuta yetirdi və bir çoxlarının ondan uzaqlaşmasına səbəb oldu.

Yəmamə döyüşündə qəhrəmancasına vuruşan Yasir yaralanır. Müsəlmanların əhval-ruhiyyəsində zəiflik görən Əmmar bir qaya parçasının üstünə çıxıb onları müqavimət göstərməyə çağıraraq deyir: «Yoxsa behiştdən qaçırsınız?».

Ruhdan düşmüş müsəlman qüvvələri Əmmar Yasirin şücaətindən və sözlərindən cürətlənib yenidən onun ətrafında toplaşır və bu döyüş müsəlmanların qələbəsi ilə başa çatır.

İkinci xəlifənin dövründə Əmmarı Kufəyə vali təyin edirlər. İbn Məsud da xəzinədar kimi onu müşayiət edir. Xəlifənin onlara aid olan hökmündə belə yazılır: «Bu iki şəxs Məhəmmədin (s) ən üstün və seçilmiş köməkçilərindəndir. Onları dinləyin və onlara iqtida edin».

Əmmar haqla batilin ölçüsü olan müsəlmanlardan sayılırdı. Bu üsul Həzrət Məhəmmədin (s) tərəfdarları arasında məşhur bir üsul idi. Onların qarşısına çətin bir seçim çıxdıqda deyərdilər: «Baxın görün Əmmar Yasir hansı yolu seçir?» Əmmarın həqiqət ölçüsü olması Həzrət Peyğəmbərin (s) buyruğuna əsaslanır. Həzrət Məhəmməd (s) buyurub: «Əmmar haqla, haqq isə Əmmarla olur. Haqq hansı tərəfə dönsə, Əmmar da həmin tərəfə dönər».

Əmmar Cəməl döyüşündə böyük şücaətlər göstərdi və savaşın Həzrət Əlinin (ə) xeyrinə nəticələnməsində mühüm rol oynadı.

Cəməl döyüşü haqq cəbhəsinin qələbəsilə bitdi. Amma qarşıda daha çətin bir döyüş vardı. Hakimiyyət istəyində olan Müaviyə müsəlmanlar arasında təfriqə salaraq xilafətə qarşı qiyam etdi. Müaviyə hiylə və məkrlə Həzrət Əlinin (ə) əleyhinə təbliğat apararaq müsəlmanları döyüşməkdən çəkindirmək istəyirdi. Lakin Müaviyənin cəhdlərinə baxmayaraq, Əmmarın bu döyüşdə şəhid olması Həzrət Əlinin (ə) haqq olduğunu, Müaviyənin zalımlığını bir daha sübut etdi. Bir çoxları Peyğəmbərin (s) Əmmar haqqında buyurduğu hədisi xatırlayaraq Müaviyəni tərk etdi. Hətta Şam qoşununun tanınmış sərkərdələrindən olan Abdullah da Əmmarın şəhadətindən xəbər verən hədisə əsaslanaraq Müaviyədən uzaqlaşaraq Həzrət Əliyə (ə) qoşuldu. Onun bu hərəkəti Müaviyə qoşununu təlatümə gətirdi. Hər kəs çaşqınlıq içində idi. Müaviyə növbəti hiyləyə əl atdı: Quranın nizələrə keçirilməsini əmr edir. Həzrət Əlinin (ə) qoşunundakı bir çox sadəlövh müsəlmanlar bu hiyləyə aldanaraq hücumdan əl çəkir. Onlar Həzrət Əlini (ə) vadar etdilər ki, müharibənin taleyi mühakimə yolu ilə həll edilsin.

Əmmar vəsiyyət etmişdi ki, onu öz libası ilə dəfn etsinlər. İmam Əli (ə) Əmmarın cənazə namazını qıldı və Əmmar qanlı libasında torpağa basdırıldı.

Əmmar ilk müsəlmanlardan idi. O, ömrünün bir hissəsini Məkkədə düşmənlərlə mübarizədə və işgəncələr içərisində keçirib. Mədinədə Peyğəmbərin (s.ə.s) həyatı dövründə və ondan sonra da müharibələrdə iştirak edərək ömrüboyu İslama xidmət edib. Nəhayət, Siffeyn döyüşündə 94 yaşında şəhid olub.

Malik Əştər şəhadətə yetən zaman Müaviyə dedi: «Əli ibn Əbutalibin iki əli var idi. Onlardan biri Siffeyn döyüşündə kəsildi və o, Əmmar Yasir idi. O biri əli isə Malik Əştər idi ki, o da bu gün şəhid edildi».



# Sadrul-Mutəəllihin MOLLA SƏDRA

إِنَّمَا يَخْشَى اللَّهَ مِنْ عِبَادِهِ الْعُلَمَاءُ

**“Allahdan öz bəndələri içərisində ancaq alimlər qorxar”**
(“Fatir” surəsi, ayə 28).



İslam mədəniyyətinin yetişdirdiyi parlaq simalardan və İslam fəlsəfəsinin zirvələrindən biri hesab olunan "sadrul-mutəəllihin" - "həkimlərin (filosofların) rəisi" Sadruddin və Molla Sədra kimi məşhur olan Muhəmməd ibn İbrahim ibn Yəhya Qəvami Şirazi çox nüfuzlu və tanınmış bir ailədə təxminən hicri 979-980 və miladi 1571-1572-ci ildə Şirazda dünyaya gəlmişdir.

Uzun müddət Allaha bir övlad verməsi üçün dua edən varlı bir ailənin tək övladı olan Molla Sədra böyük bir diqqətlə yetişdirildi. Səfəvilərdən əvvəl yüz illər boyunca İslam fəlsəfəsinin və digər mənəvi təlimlərin mərkəzi olan Şiraz şəhərində olduqca yaxşı bir təhsil aldı. O, öyrədilən hər bir şeyi tez qavrayan, vaxtından əvvəl inkişaf etmiş bir uşaq idi. Erkən yaşlarından iti zəkası ilə təqvasını birləşdirərək dini elmlər sahəsində olduğu kimi əqli elmlərdə də böyük müvəffəqiyyət nümayiş etdirdi.

Şirazdakı müəllimlərin dərslərindən səmərəli istifadə etdikdən sonra fəlsəfə sahəsində o dövrdə İranın və bəlkə də bütün müsəlman Şərqinin ən böyük düşüncə mərkəzinə çevrilən İsfahana getdi və orada ruhuna dərindən təsir edən dövrünün böyük ustadları ilə qarşılaşdı. Şeyx Bəhauddin Amili, Mir Damad, Mir Əbulqasim Findiriskidən dərs almaq imkanı əldə etdi. Qısa müddətdə elə bir dərəcəyə çatdı ki, ustadlarını belə ötüb keçdi.

İsfahanda təhsil almış bir çox şəxslər, o cümlədən Seyyid Əhməd Ələvi, Ağa Hüseyn Xansari, Molla Muhəmməd Baqir Səbzivari ilə dostluq edən Molla Sədra çox keçmədi ki, dövrünün tanınmış ustadları sırasına daxil oldu. O, şəxsiyyətinin tam kamilləşməsi üçün başqa bir mühitin axtarışındaydı. Bu məqsədlə zahidanə bir həyat yaşamaq üçün İsfahanı tərk edir və bununla da həyatının təhsil illərini əhatə edən birinci mərhələsi bitmiş və ruhi tərbiyə ilə məşğul olduğu ikinci mərhələsi başlamış olur. Molla Sədra hikməti əldə edə bilməyin əsas şərti saydığı nəfsin təzkiyyəsinə (təmizlənməsinə) nail ola bilmək üçün ictimai həyatın qarışıqlığı və səs-küydən uzaqlaşmaq ehtiyacı hiss edir və Qum şəhərinin yaxınlığında yerləşən kiçik və sakit bir qəsəbə olan Kəhəkə gəlir.

Kəhək təsadüfi seçilmiş bir yer deyildi. Bura Qum şəhərinin müqəddəs təbiətinə aid idi. Belə bir yerə gəlməyin səbəblərindən biri də açıq bir üslubla yazması, irfani və metafizik təlimləri hər bir kəsin başa düşə biləcəyi bir tərzdə açıqlamasına görə dünyəvi elm sahibləri tərəfindən məruz qaldığı təzyiqlərdən uzaqlaşmaq idi. Molla Sədra öz əsərlərində və Mir Damada yazdığı məktublarında açıq ifadələrlə çağdaşlarının onu anlamadığını və sınıq bir qəlblə təkliyə çəkilmək məcburiyyətində qaldığını qeyd edir.

Mənbələrdə Molla Sədranın Kəhəkdə yeddi, on bir və ya on beş il qaldığı qeyd olunur. Təfəkkür və ruh tərbiyəsi ilə

məşğul olduğu bu dövrdə mənəvi yüksəlişi praktiki olaraq yaşamış olur və nəticədə aydınlanmış bir hikmət alimi kimi püxtələşir. Özü bu haqda deyir: "Kəhəkdə yaşadığım zaman nəfsin təzkiyyəsi üçün çalışırdım. Təklikdə təfəkkürə dalır,öyrəndiyim məlumatları nəzərdən keçirirdim. Çalışırdım ki, elm və iman qüvvəsi ilə varlığın sirlərini anlayım. İxlas və nəfsi təzkiyyənin nəticəsində qəlbim işıqlandı, mələkut... və cəbərut qapıları... üzümə açılmış oldu, İlahi aləmin sirlərini anladım və elə şeyləri dərk etdim ki, başlanğıcda təsəvvür belə etmirdim. Onun rəmzləri mənim üçün açılmış oldu".

Abbas Qumi nəql edir ki, Molla Sədra Kəhəkdə yaşadığı dövrdə vaxtaşırı Quma gələr və həzrət Məsumənin müqəddəs hərəmini ziyarət edərək elmi məsələlərdəki çətinliklərinin həlli üçün ondan kömək istəyərdi.

Xalqın arasına qayıtması üçün Molla Sədraya ictimai təzyiqlər göstərməyə başlayırlar. Şah II Abbas onu müəllimlik etməsi üçün Şiraza çağırır.

Beləliklə, bu böyük ustad həyatının son mərhələsinə başlamaq üçün doğma şəhərinə qayıdır. Bu mərhələ bir çox dəyərli əsərlərin yazılması və tələbələrin yetişdirilməsi ilə səciyyəvidir. Onun şəxsiyyəti, elmi bir çox tələbəni özünə cəzb edir və Şiraz yenidən böyük bir elm mərkəzinə çevrildi. Xan mədrəsəsi o qədər məşhurlaşmışdı ki, xarici səyyahların belə diqqətini özünə cəlb edirdi. On yeddinci əsrdə İrana səyahət edən, Molla Sədranın sağlığında Şirazda olan Tomas Herbert yazırdı: "Doğrudan da, Şiraz fəlsəfə, astrologiya, fizika, kimya və riyaziyyatın tədris olunduğu bir kollecə malikdir. Bura İranın ən məşhur yeridir".

Molla Sədra otuz yaşında ikən bir neçə dəfə piyada olaraq Məkkəyə həcc səfərlərinə getdi.

Yeddinci səfərindən geri qayıdarkən xəstələndi və hicri 1050 - miladi 1640-cı ildə Bəsrədə dünyasını dəyişdi.

Beləliklə, Molla Sədranın həyatını üç mərhələdə xülasə etmək olar:

1. Şiraz və İsfahandakı təhsil dövrü;

2. Kəhəkdəki zöhd və nəfsin təzkiyəsi dövrü. Bu mərhələdə Molla Sədra özünü tamamilə mənəvi həyata həsr etsə də, Əsfarın ilk hissəsi, Tarh əl-Kauneyn, Hudusul-aləm və digər bəzi əsərləri də yazmışdır.

3. Şiraza qayıdıb ömrünün qalan hissəsini yazmağa və tədrisə həsr etdiyi mərhələ. Bu mərhələdə yerdə qalan əsərlərini yazdı və Molla Muhsin Feyz Kaşani və Əbdurrəzzak Lahici kimi tanınmış tələbələr yetişdirdi.

Molla Sədranın təhsil və mənəvi təmizlənmə mərhələlərindəki həyatı, üçüncü mərhələdə öz bəhrəsini verdi.

Həqiqətdə Molla Sədra əqli təlimlə mənəvi təcrübəni birləşdirən və Sührəverdinin "mütəallih" adlandırdığı həqiqi hikmət sahibi olan alimlərin üstün bir nümunəsidir. Ona görə də Molla Sədraya hikmət və fəlsəfə sahəsində ən uca ad olan "Sadrul-mutəallihin" adı verilmişdir. Mənası İlahi sirlərin elmini axtaran seçilmiş insanların rəisi deməkdir.

### Əsərləri

Molla Sədranın bütün əsərləri həm əqli, həm də ədəbi dəyərə malikdir. Əksəriyyəti açıq, sadə və axıcı bir dillə ərəbcə yazılmışdır.

Yalnız bir neçə əsər fars dilindədir. Molla Sədranın ən mühüm əsəri qısaca olaraq "Əsfar" adı ilə məşhur olan "Ruhun dörd əqli səfəri ilə bağlı ali hikmət" əsəridir.

"Əsfar" özündən əvvəlki İslami kəlam, fəlsəfə və sufi məktəblərinin mübahisə mövzusu olan bütün problemləri əhatə etdiyindən onu anlamaq üçün bu məktəblər haqqında məlumatlı olmaq lazımdır. Bu əsər tələbələrə yalnız irfanın əsas prinsipləri, kəlam, Məşşai fəlsəfə və İşraqi hikmətin bilinən mətnləri yaxşıca mənimsənildikdən sonra oxudulmuşdur.

Əsərdə əvvəlcə müxtəlif məktəblərin görüşləri araşdırılır, sonra isə müəllifin məntiqi dəlillərlə əsaslandırılan fikirləri açıqlanır. Bu cəhətdən "Əsfar" İslamın metafizik təlimlərinin okeanı və İslam mədəniyyəti xəzinəsi olub müəllifin zəngin biliyini nümayiş etdirən bir əsərdir.

"Əsfar"ın üslubunun bənzərinə istər Molla Sədranın digər əsərləri, istərsə də bütün İslam fəlsəfəsi içində rast gəlmək mümkün deyil. Əsərdə metafizik qavrayış və yanaşma bir tarixçi və elm adamının dəqiqliyi ilə birləşdirilmiş, eyni zamanda kəşf sahibinin sezmə və mükaşəfəsi ilə məntiq ustadlarının sistematik analiz qabiliyyəti sintez edilmişdir.

Beləliklə, həyatının ikinci mərhələsində başlayıb ömrünün sonunadək davamlı olaraq üzərində işlədiyi bu əsər Molla Sədranın həyatının mükəmməl bir şəhadətnaməsidir. Onun digər əsərləri bu ananın dünyaya gətirdiyi övladlara bənzəyir ki, hər biri "Əsfar"ın hissələri və ya bəhslərindən birinin daha çox açıqlanması və izahı mahiyyətini daşıyır.

### Molla Sədranın tələbəsi olmağın şərtləri

İranın hər bir yerindən Molla Sədranın dərslərində iştirak etmək üçün Şiraza gəlirdilər. Ustad isə tələbələri dörd şərt ilə qəbul edirdi:

1. Mal qazanmaq məqsədləri olmasın, yaşayışa yetəcək qədər malla kifayətlənsinlər;
2. Vəzifə, məqam əldə etmək məqsədləri olmasın;
3. Günah etməsinlər;
4. Təqlid etməsinlər (yamsılamasınlar).

Şagirdlər bu şərtlərə əməl etdikləri təqdirdə Molla Sədra onlara mədrəsədə oxumağa icazə verərdi. Əks təqdirdə onlara tövsiyə edərdi ki, başqa yerdə təhsil alsınlar. Molla Sədraya görə dünya malı qazanmaq məqsədi olan şəxs həqiqi elm əldə edə bilməz.

### Molla Sədra və ilk dərs günü

Mir Damad ilk dərs bitdikdən sonra tələbəsi Molla Sədranı kənara çəkib dedi: "Ey Muhəmməd! Mən bu gün dedim ki, hikmət əldə etmək istəyən kəs gərək əməli hikmətin ardınca düşsün. Və indi sənə deyirəm ki, birinci dərəcədə əməli hikmət iki şeydir: biri İslam dininin bütün vaciblərini yerinə yetirmək, ikinci isə nəfsin öz xoşhallığı üçün tələb etdiyi hər bir şeydən çəkinmək. Vacibləri yerinə yetirmək bu cəhətdən zəruridir ki, tələbə onları yerinə yetirərkən hər birindən, özü üçün faydalı nəticələr əldə edir... Hikmət əldə edən gərək nəfsin istəklərini təmin etməkdən çəkinsin. Nəfsi əmmarənin qarşısında müti olub eyni zamanda hikmət əldə etməklə məşğul olan kəs çox böyük ehtimalla dinsiz olacaq və düz iman yolundan azacaq".

Allah Rəsulu (s) buyurub:

"Peyğəmbərlik məqamına ən yaxın insanlar alimlər və mücahidlərdir".

# KROSSVORD



**Eninə**
**3. Fəqirə verilən hədiyyə**
**6. Əsr namazının rükətlərinin sayı**
**7. Tövbələri qəbul edən**
**9. İslamı ifadə edən rəng**
10. 7-ci Məsum

**Aşağı**
**1. Qeybətdə olan İmam**
**2. Alını möhürə qoymaq**
**4. Musa Peyğəmbərin möcüzəsi**
**5. Habilin qatili**
**8. Pis əməldən çəkindirən**



**Eninə**
**3. Quranda adı çəkilən heyvan**
**4. Peyğəmbərlərin (s) xatəmi**
**8. Quranın dili**
**9. Dinin sütunu**
**10. Quranda birinci surə**

**Aşağı**
**1. Surə**
**2. Elm öyrənən**
**5. Peyğəmbərin (s) şəhəri**
**6. Bağışlayan və mehriban**
**7. Nuh Peyğəmbərin möcüzəsi**

# İBRƏT DOLU KƏLAMLAR



Allahdan qorxmayan qəlbdə,
göz yaşı tökməyən gözdə,
fayda verməyən elmdə xeyir olmaz.



Susanda düşünən, danışanda zikr edən
və baxanda ibrət alan adam ağıllıdır.



Dünya birisinin əlində əbədi
qalsaydi, ona sahib olma növbəsi
sizə gəlib çatmazdı.



Dünya malına çox əhəmiyyət verən
adamlarla yoldaş olma; kasıb olsan
xor baxar, varlı olsan qısqanar.



Sənin sahib olduğun az
başqalarının sahib olduğu
çoxdan daha yaxşıdır.



İnsan iki cürdür: biri istər, tapa
bilməz; digəri tapar, qane olmaz.



Özün öz sirrini saxlaya bilmirsən-
sə, onu faş edən başqasını
qinamağa haqqın yoxdur.



İstədiyini əldə edə bilmirsənsə,
onda əldə etdiyini istə.



Müsəlman ola bilmək üçün, özünə
istədiyin hər şeyi başqaları üçün
də istə.




Allah bir qulunu bəyənərsə, onun
qəlbini öz sevgisinə qərq edər.



Ömrünün keçən qismi, bitib tükənmiş
bir zamandır, gələcək qismi bir
ümiddən ibarətdir, içində olduğun an
isə çalışma zamanıdır.



Əməl olmadan dua etmək, yay
olmadan ox atmağa bənzəyir.



Bir axmağa verilə bilən ən doğru
cavab, ona cavab verməməkdir.



Başqlarına göstərdiyin nəcib rəftar,
özünə etdiyin yaxşılıqdır. Özünə
etdiyin bu yaxşılıq üçün
başqalarından əvəz gözləmə.



Gücsüzlərə kömək etməyə aciz
qalırsansa, onları şəfqətlə bağrına
basmağın yetər.